

## Gəncədə Ümumrespublika “Xəmsə” Festivalının bağlanış mərasimi keçirilib

Səhifə 8

Səs

№ 180 (6380) 5 oktyabr 2021-ci il. Qiymətı 40 qəpik

# İlham Əliyev:

## Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq!

Prezident İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub

“Təsadüfi deyil ki, Ermənistan ordusunda on mindən çox fərari olmuşdur. Onlar görürdülər ki, bizim qabağımızda dura bilmirlər. Görürdülər ki, onların hakimiyyəti onlara yalan danışır, onları ölümə göndərir”



Səhifə 4



### Müəllim ustad, öyrədən, həyata vəsiqə verəndir

“Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına riayət edərək Azərbaycan təhsilinin ənənələrinə sadiq... 11




Fəth etdiyi zirvə ilə ölümsüzlüyə qovuşan Qoşqar Ömərov

Azərbaycanın bütövlüyü uğrunda, torpaqlarımızın qorunmasında canlarından keçmiş şəhidlərin... 12



### Cindən yeni “müjdə” “X” virusu gəlir

Çinin Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin rəhbəri Qao Fu elm və texnologiyaya dair beynəlxalq... 16


andalucía información

MUNDO

El presidente azerbaiyano, dispuesto a incrementar suministros de gas a Europa

### İspandilli mətbuat Azərbaycan Prezidentinin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsini geniş işıqlandırır

Səhifə 3

# Mahir Emreli:

## “Tək düşüncəm çempionluqdur”

Səhifə 16



### Gənclər narkomaniya tələsinə necə düşür

### YAP Quba rayon təşkilatı tərəfindən Əfsan Salıyevin xatirəsi anılıb

13

Bax 14

### Ayətullah Xomeyninin amerikalılarla gizli sövdələşmələri üzə çıxıb



Bax 10

### Milli Qəhrəman Yuriy Kovalyovun büstünün açılışı mərasimi olub



Bax 16

### Kosmetik məhsullarda olan spirt dərini qurudur



### Bakıda böyük əməliyyat: Görün, kimlər tutulub






### Bakıda ”Beynəlxalq Kitab Sərgisi” keçirilir





### Ətimizin yiyəsi

15

Dünyada peşələr çoxdur. Deyilənə görə, 20 mindən artıq peşə və sənət növü var. Lakin bütün bu peşələrin sahiblərini bir peşə sahibi yetişdirir. Bu...



### Mourinyo “Roma”da rekord qırır...

16

“Roma”nın baş məşqçisi Joze Mourinyo İtaliya A Seriyasında yeni rekorda imza atıb. Qol.az xəbər verir ki, bu barədə ”Opta” məlumat...

# İlham Əliyev: "Status yoxdur və hər kəs bu məsələni unutmalıdır!"

## Prezident İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

***- Sabahınız xeyir, cənab Prezident.***

- Sabahınız xeyir.

***- Mənə vaxt ayırdığınız üçün təşəkkür edirəm.***

- Təşəkkür edirəm. Sizi görməyə çox şadam.

***- Mən həqiqətən buna görə Sizə minnətdaram.***

- Təşəkkür edirəm. Auditoriyanız qarşınızda çıxış etmək imkanına görə sizə təşəkkür edirəm.

***- Dərhal suallara keçəkmi?***

- Bəli, necə istəyirsiniz.

***- Cənab Prezident, bir il bundan əvvəl Dağlıq Qarabağda müharibə başlamışdır və Siz əksər ərazilər üzərində nəzarətə təkrarən yiyələndiniz. Noyabrda Siz mənə dediniz ki, müharibədən sonra bir araya gəlməyə və ya danışıqlar masasına qayıtmağa razı olacaqsınız. Siz indi baş nazir Paşinyanla birbaşa bir araya gəlməyə hazırsınızmı və əgər cavabınız "bəli" dirsə, bu, nə zaman baş verəcək və hansı formatda?***

- Bəli, sizə keçən dəfə dediyim kimi biz hazırıq. Əslində, danışıqlar və təmaslar başlamışdır. Azərbaycan, Ermənistan və Rusiyanın Baş nazirlərinin müavinləri səviyyəsində əməkdaşlığın formatı mövcuddur və bu format kommunikasiyaların açılması məsələsinə həsr olunub. Həmçinin bu yaxınlarda BMT Baş Assambleyasının sessiyası çərçivəsində Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü baş tutub. Bu, müharibə bitəndən sonra birinci dəfə baş vermişdir. Bizim nazirin mənə verdiyi məlumata görə hesab edirəm ki, görüş konstruktiv və ümidverici olmuşdur. Bizim mövqeyimiz müharibə bitəndən sonra dəyişməz olaraq qalır. Biz Ermənistanla hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında normal münasibətlər qurmaq istəyirik. Biz dərhal sərhədlərimizin delimitasiyasına və əlbəttə ki, bu proses bitəndən sonra demarkasiyasına başlamağa hazırıq. Həmçinin biz gələcək sülh sazişi üzərində Ermənistanla işləməyə başlamağa hazır olduğumuzu bildirmişik. Bütün bu təşəbbüslər tərəfimdən və digər Azərbaycan rəsmiləri tərəfindən dəfələrlə vurğulanmışdır. Lakin əfsuslar olsun ki, Ermənistan hələ də buna müsbət cavab verməyib. Beləliklə, bizim mövqeyimiz dəyişməz olaraq qalır və bəzi addımlar var, lakin hesab edirəm ki, biz bu il ərzində daha çox irəliləyişə nail ola bilərdik.

***- Lakin Sizin bu gün baş nazir Paşinyanla bir araya gəlməyə heç bir niyyətiniz yoxdur?***

- Mən hazıram və mövqeyimi artıq ifadə etdim. Ermənistan tərəfi hazırdırsa, mən də hazıram. Bizim bir görüşümüz olmuşdur və o, Rusiya Prezidenti Vladimir Putinin dəvəti əsasında bu ilin əvvəlində üçtərəfli formatda keçirilmişdir. Mən cənab Paşinyanla o, hazır olanda istənilən zaman danışmağa hazıram. Beləliklə, mən bu müzakirələrə açığam və hesab edirəm ki, bu, müharibənin bitdiyinin və həmin səhifənin çevrildiyinin yaxşı göstəricisi ola bilər. Bu, çox vacibdir. Çünki

> **"Müharibə bitəndən və münaqişə öz həllini tapdıqdan sonra bu, təkcə mənim mövqeyim deyil, bu, dünyanın, beynəlxalq ictimaiyyətin əksər hissəsinin mövqeyidir ki, artıq mövcud olmayan "qurumun" statusu haqqında danışmağın yeri yoxdur. Çünki Dağlıq Qarabağ mövcud deyil. Bizim ərazimizdə belə inzibati vahid yoxdur"**

biz hələ də Ermənistan siyasi isteblişmentində revanşizm cəhdlərini nümayiş etdirən bəyanatları, tarixən və beynəlxalq hüquq əsasında bizə məxsus olan əraziləri təkrar ələ keçirmək üçün gələcək planların qurulması cəhdlərini görür və eşidirik. Buna görə, Ermənistan hökumətinin iradəsi, ciddi iradəsi, təkcə sözlər, bəyanatlar yox, əməllər müharibənin bitməsini və bizim sülh dövrünə doğru irəlilədiyimizi nümayiş etdirəcək.

***- Lakin Ermənistan üçün hələ Dağlıq Qarabağın statusu məsələsi var və keçmişdə Siz onlara qismən muxtariyyət kimi imkanlar təklif etmişdiniz. Bu, hələ də qüvvədədirmi, yoxsa artıq müzakirə predmeti deyil?***

- Səmimi desəm, son dövrdə biz Ermənistandan həmin ərazinin statusu ilə bağlı heç bir bəyanat eşitməmişik. Əfsuslar olsun ki, bu fikirlər bəzi digər ölkələr, onların yüksək səviyyəli nümayəndələri tərəfindən səslənir. Bizim mövqeyimizə gəldikdə, mən bunu dəfələrlə bildirmişəm. Demək olar ki, 30 illik danışıqlar prosesi ərzində Azərbaycanın mövqeyi çox konstruktiv olmuşdur. Biz deyirdik ki, - Minsk qrupunun həmsədrləri bunu çox yaxşı bilirlər, - Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə verməyə hazır idik. Lakin bu mövqeyi Ermənistan tərəfi həmişə rədd etmişdir və onlar həmişə "Dağlıq Qarabağ" adlandırdıqları ərazi üçün müstəqillik tələb edirdilər. Lakin bu gün, müharibə bitəndən və münaqişə öz həllini tapdıqdan sonra bu, təkcə mənim mövqeyim deyil, bu, dünyanın, beynəlxalq ictimaiyyətin əksər hissəsinin mövqeyidir ki, artıq mövcud olmayan "qurumun" statusu haqqında danışmağın yeri yoxdur. Çünki Dağlıq Qarabağ mövcud deyil. Bizim ərazimizdə belə inzibati vahid yoxdur. Bu il iyulun 7-də mən Azərbaycanın iqtisadi zonalarının yeni konfiqurasiyası ilə bağlı Fərman imzaladım. Biz iki iqtisadi zona - Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratdıq və onlar bütün bu ərazini əhatə edir. Bu gün Rusiya sülhməramlılarının məsuliyyət daşıdığı ərazidə - Qarabağda yaşayan 25 minə yaxın etnik erməni bizim vətəndaşlardır. Onların fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq. Qısaca desək, status məsələsinə qayıtmaq mümkün deyil, status yoxdur və hər kəs bu məsələni unutmalıdır.

***- Sizin dediyiniz kimi, sərhədlərin delimitasiyası, hərbi əsirlər, minalardan təmizləmə kimi müzakirə olunası bir çox başqa məsələlər var. Bu məsələlər üzərində iş necə gedir? İrəliləyiş varmı, yoxsa hər şey dayanıb?***

- Dırnaqarası müharibə əsirlərinə gəldikdə, mən sizin tamaşaçılarınız üçün bu məsələyə aydınlıq gətirmək istəyirəm. Mən dəfələrlə beynəlxalq hüququn normalarına və beynəlxalq konvensiyalara istinad edərək, hansı şəxslərin müharibə əsirləri hesab oluna biləcəyi ilə bağlı danışmışam. Beynəlxalq konvensiyalara əsasən, belə şəxslər müharibə zamanı saxlanılmış və ya əsir götürülmüş insanlardır. Müharibə zamanı saxlanılmış bütün şəxslər müharibə başa çatan kimi tərəfimizdən dərhal qaytarılıb. Əslində, biz onları Ermənistan bizim əsirləri qaytarmamış geri vermişik. Ermənistan və bəziləri tərəfindən "müharibə əsirləri" adlandırılan sonra saxlanılmış və artıq həbsdə olanlar bu kateqoriyaya daxil deyillər. Bu adamlar işğaldan azad olunmuş ərazilərə noyabrın sonunda - müharibənin başa çatmasından və Ermənistanın kapitulyasiya aktını imzalamasından iki həftə sonra göndərilənlərdir. Onlar azad etdiyi-

> **"Bu gün Rusiya sülhməramlılarının məsuliyyət daşıdığı ərazidə - Qarabağda yaşayan 25 minə yaxın etnik erməni bizim vətəndaşlardır. Onların fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq"**

miz ərazilərdə dekabrın əvvəlində saxlanılıblar. Bunlar 62 nəfərdən ibarət olub və onların bəziləri cinayətlər törədiblər. Onlar bizim hərbçilərimizə hücum edib və dörd nəfəri qətlə yetiriblər. Yəni, bunlar müharibə əsirləri deyil, onlar azərbaycanlı mülki əhaliyə və hərbçilərə hücum etmək məqsədilə göndərilmiş terrorçu və diversiya qrupunun üzvləridir. Buna baxmayaraq, biz bu müddət ərzində onların bəzilərini geri qaytardıq ki, bu da xoş məramın göstəricisi idi.

Ermənistan tərəfindən işğal altında olmuş keçmiş ərazilərdə basdırılmış minaların xəritələrinə gəldikdə, burada söhbət yüz minlərlə minadan gedir. İlkin olaraq, minalanmış ərazilərin xəritələri tərəfimizdən tələb edildikdə, Ermənistan hökuməti ən yüksək səviyyədə bəyan edirdi ki, onlarda belə xəritələr yoxdur. Müharibə bitdiyi bir ilə yaxın dövrdə Ermənistanın xəritələri bizə verməməsi nəticəsində mülki vətəndaş və hərbçilərimiz arasında 150 nəfər həlak olmuş və ya ağır yaralanmışdır.

Bu yaxınlarda bəzi xəritələr təqdim edilib, lakin həmin xəritələrin dəqiqliyi yalnız 25 faizdir. Beləliklə, bizim tələbimiz ondan ibarətdir ki, Ermənistan bizə dəqiq xəritələr təqdim etsin. Həmin xəritələrdə minalanmış ərazilər yox, - onsuz da onlar hər yerə mina basdırıblar, - minaların dəqiq yerləri göstərilsin. Belə xəritələr onlarda var. Bunu etsələr, xoş niyyət nümayiş etdirsələr, biz buna adekvat cavab verəcəyik.

***- Minsk qrupu vasitəçiliklə məşğuldur, ancaq kömək təklif edən digərləri də var. Məsələn, Avropa İttifaqı minaların təmizlənməsi və sərhədlərin delimitasiyasında yardım göstərməyi təklif edib. Bu məsələ tərəfinizdən nəzərdən keçirilirmi? Postmüharibə dövründə Avropa İttifaqı hər hansı bir rol oynaya bilərmi?***

- Bəli, biz bu təşəbbüsləri dəstəkləyirik. Bu mövzular bizim rəsmilər və Avropa İttifaqı nümayəndələri arasında çoxsaylı təmaslarda müzakirə edilir. Bundan əlavə, cari ilin yayında Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin Azərbaycana səfəri zamanı biz vəziyyəti geniş müzakirə etdik və fəal şəkildə çalışmaqla bağlı birgə niyyətimizi ifadə etdik. Avropa İttifaqı yenidənqurma və dinc mühitin yaradılması kimi müxtəlif sahələrdə təcrübəyə malikdir.

Ardı Səh. 3

Əvvəli Səh. 2

# İlham Əliyev: "Status yoxdur və hər kəs bu məsələni unutmalıdır!"

## Prezident İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi

Beləliklə, Avropa İttifaqı delimitasiya prosesində iştirak etmək və hər iki tərəfi razılığa gətirməklə bağlı niyyətini ifadə etdi və biz belə təşəbbüsləri dəstəkləyirik. Lakin bildiyimə görə, Ermənistan tərəddüd edir. Ermənistan Avropa İttifaqının təklifini qəbul edib-etməyəcəyi ilə bağlı qərar verməyib. Azərbaycanın mövqeyi isə olduqca açıqdır. Biz işləməyə hazırıq və müxtəlif səviyyəli dövlət rəsmilərimiz Avropa İttifaqı ilə təmasdadırlar. Avropa İttifaqı bizə delimitasiya, kommunikasiyaların açılması və postmüharibə dövründə inkişaf məsələlərində yardım edə bilər. Biz, həmçinin Avropa İttifaqı ilə iqtisadi yardım məsələsi ətrafında müzakirələr aparırıq. Bizə məlumdur ki, Avropa İttifaqı Ermənistan üçün 2.6 milyard avro həcmində iqtisadi yardım paketinin hazırlanması prosesindədir. Bu proses artıq başa çatmış da ola bilər. Əlbəttə, bizim gözləntimiz ondan ibarətdir ki, həmin həcmdə məbləğ eyni şərtlərlə Azərbaycana da təklif edilsin. İstər qrant, istərsə də kredit - burada bərabərlik olmalıdır. Çünki işğaldan əziyyət çəkmiş olan ölkə bizik. Bizim 10 min kvadratkilometr sahəyə malik olan, tamamilə dağıdılmış ərazimiz, yüzlərlə şəhər və kəndlərimiz var. Bu səbəbdən biz, əlbəttə ki, həmin iqtisadi yardım paketinin qeyri-balanslı olmasına dair öz narahatlığımızı ifadə etdik. Hazırda biz Avropa İttifaqı ilə təmaslarımızı davam etdiririk və onlardan bizə iqtisadi dəstəklə əlaqədar təklif gözləyirik. Avropa İttifaqı çox iş görə bilər. Biz bu imkanlardan istifadə etməyə hazırıq və Avropa İttifaqına dürüst vasitəçi kimi etibar edirik.

***- Mülki əhalinin işğaldan azad olunan ərazilərə nə zaman qayıda biləcəyini təxmin edirsiniz?***

- Əlbəttə, burada ilk maneə minalardır. Ərazilər minalardan təmizlənməyincə biz insanları geri qaytara, həyatlarını təhlükə altında qoya bilmərik. Dəfələrlə dediyim kimi, bu işdə bizim əsas rəqibimiz zamandır. Biz minalardan təmizləmə işini özümüz həyata keçiririk. Biz Minatəmizləmə Agentliyimizin heyətini artırmışıq. Bu prosesdə iştirak edən hərbçilərimizin də sayı artırılıb. Lakin bu, vaxt tələb edir. Bununla belə, minaları təmizlədiyimiz yerlərə gəldikdə, biz mülki əhali üçün artıq qəsəbələri, şəhərləri və kəndləri tikməyə başlamışıq. Birinci gördüyümüz iş tələbatların və infrastrukturun tam nəzərdən keçirilməsi oldu. Elektrik enerjisi infrastrukturu bu ilin sonuna, yəni bir neçə aydan sonra tam hazır olacaq. Eyni zamanda, yollara və su təchizatına aid olan məsələlər də vacibdir. Biz artıq bir neçə ay əvvəl pilot layihə olaraq kəndlərdən birinə sərmayə qoymağa başlamışıq və ola bilsin, bu ilin sonuna və ya gələn ilin əvvəlinə həmin kənd ilk sakinləri qəbul edə biləcək. Bu proses artıq gedir. Bütün şəhərlər üçün baş planlar hazırlayırıq. Sonra isə kəndlər üçün bunu edəcəyik. Azad olunmuş ərazilərin yenidən qurulmasına yalnız bu il üçün 1 milyard 300 milyon dollar həcmində vəsait ayırmışıq.

Beləliklə, bunun başlamasının dəqiq vaxtını söyləmək çətindir. Lakin proses mərhələli şəkildə başlayacaq. Qeyd etdiyim kimi, birinci mərhələ bir neçə ay davam edəcək.

***- Müharibə zamanı Türkiyə sizə dəstək verdi. Rusiya atəşkəs üçün vasitəçi kimi çıxış etdi və sülhməramlıları göndərdi. Fikrinizcə, müharibə regionda güclər balansını dəyişdimi?***

- Bəli, Türkiyə lap başlanğıcdan bizə dəstək verdi. Biz müharibənin ilk günlərindən verdiyi siyasi və mənəvi dəstəyə görə Türkiyə hökumətinə çox minnətdarıq. İndi isə, müharibə bitdikdən sonra Türkiyə, o cümlədən Rusiya gələcək regional inkişafda və sabitlikdə çox mühüm rol oynayırlar. Bildiyiniz kimi, Rusiya və Türkiyə Qarabağ bölgəsinin Ağdam rayonunda birgə monitorinq mərkəzini yaradıblar. Eyni zamanda, Rusiyanın sülhməramlıları erməni əhalinin yaşadığı yerlərdə sülhün mühafizəsi tədbirlərini görürlər. Beləliklə, artıq yeni reallıqlar yaranıb. Hər bir ölkə həmin reallıqları nəzərə almalıdır. Azərbaycan ilə Ermənistan arasında güclər balansı hələ xeyli il bundan əvvəl dəyişdi. Biz öz potensialımızı, Ermənistanın potensialını bilirdik. Ola bilsin, erməni hökuməti Azərbaycan qarşısında şanssız olduğunu, əraziləri dinc yolla boşaltmadığı təqdirdə ciddi çətinliklərlə üzləşəcəyini real şəkildə qiymətləndirə bilmədi. Düşünürəm ki, bu gün Türkiyə və Rusiya Azərbaycanın iki qonşusu kimi, - yeri gəlmişkən, onlardan biri Ermənistanın qonşusudur, - sabitlik, təhlükəsizlik və gələcək inkişaf sahəsində çox mühüm rol oynayırlar. Yəqin bilirsiniz, bu yaxınlarda iki ölkə prezidentlərinin görüşü oldu. Digər məsələlərlə yanaşı, onlar Ermənistanla Azərbaycan arasında vəziyyəti müzakirə etdilər. Biz hər iki ölkənin rolunu çox müsbət, sabitləşdirici rol kimi dəyərləndiririk. Fikrimcə, bu, yeni regional əməkdaşlıq düsturunun özəyini təşkil edir.

***- Elə mən də dəqiqliklə onu soruşmaq istəyirdim. Yəni, sabitlik, eləcə də Cənubi Qafqazın üç dövləti arasında və onların qonşuları - Türkiyə, Rusiya və İranla fəal regional əməkdaşlıq...***

- Bəli, biz "3+3" regional əməkdaşlıq platformasına dair Türkiyə Prezidentinin təklifini dəstəklədik. Ermənistan hələ ki, cavab verməyib. Görürsünüz, Ermənistan yenə də qeyri-konstruktiv mövqe sərgiləyir. Lakin biz bu təklifi tam dəstəkləyirik. Bu, nəinki müharibədən sonrakı məsələlərə, eləcə də ümumiyyətlə, bizim bölgədə regional inkişafa xidmət edəcək. Çünki əgər biz regionun altı ölkəsi arasında bu cür əməkdaşlıq formatını yaratmağa müvəffəq olsaq, bu, hər hansı yeni düşmənçilik hərəkətlərinə qarşı əsas zəmanət olacaq. Bu, regional əməkdaşlığın mühüm amilinə çevriləcək və çox fayda gətirəcək. Təkcə Azərbaycanın güclü təşviq etdiyi kommunikasiyaların açılması sayəsində biz region ölkələri arasında dərhal ticarət dövriyyəsini artıra, on minlərlə iş yeri aça bilərik. Bu, yalnız kommunikasiyaların açılması sayəsində olacaq. Bununla belə, qarşılıqlı ticarəti gücləndirsək, müsbət dinamikaya diqqət yetirsək, regionumuz gərginlik məkanından sabitlik və sülh regionuna çevriləcək.

> **Bütün şəhərlər üçün baş planlar hazırlayırıq. Sonra isə kəndlər üçün bunu edəcəyik. Azad olunmuş ərazilərin yenidən qurulmasına yalnız bu il üçün 1 milyard 300 milyon dollar həcmində vəsait ayırmışıq**

***- Sonuncu sualım. Əməkdaşlıq haqqında danışdıqda, Azərbaycan ötən ilin sonunda Cənubi Avropa ölkələrinə təbii qazı nəql etməyə başlayıb. Hazırda Avropanın qaz bazarında ehtiyatda saxlanılan qazın həcmi çox aşağı düşüb. Qiymətlər isə sürətlə qalxır. Bu halda Sizin ixracı artırmaq niyyətiniz varmı? Avropaya əlavə nə qədər qaz nəql edə bilərsiniz?***

- Haqlısınız. Biz təbii qazımızı Avropaya ixrac etməyə ötən ilin son günü - dekabrın 31-də başladıq. Həmin vaxtdan etibarən ixracımızın profili artmaqdadır. Biz uzun illər, 15 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısıyıq və hər hansı fasilə olmayıb. İndi isə təbii qazın etibarlı təchizatçısı kimi biz öz rolumuzu oynayırıq. Bizim təbii qazın qiyməti digər mənbələrdən daxil olan qazdan ucuzdur. Bu qaz yeni mənbədən gəlir. Cənub Qaz Dəhlizinin vacibliyi nəinki əlavə qaz həcmləri, o cümlədən alternativ mənbə olması ilə izah edilir. Bu, enerji təhlükəsizliyi məsələsidir. Biz Avropa istehlakçılarına göndərdiyimiz qazı artıq müqavilə əsasında satmışıq. Buna görə, əgər Avropa istehlakçılarından əlavə tələbat olarsa, biz danışıqlara başlamalıyıq, çünki siz əvvəlcə qazı satmalısınız, sonra onu hasil etməlisiniz. Adətən qaz biznesində fəaliyyətin ardıcıllığı belədir.

Azərbaycanda təbii qazın təsdiq edilmiş ehtiyatları 2.6 trilyon kubmetrdir. Belə həcm öz istehlakımız və ixrac üçün ən azı 100 ilə kifayət edər. Hazırda yeni yataqların kəşf edilməsi mərhələsindəyik. Azərbaycanın neft və qaz sektoruna böyük enerji şirkətləri arasında maraq artır. Biz həcmi və hasilatı artıra bilərik, lakin bunun üçün hazırda danışıqlara başlamalıyıq və yeni müqavilələri imzalamalıyıq. Sonra isə, daha çox hasilata sərmayə yatıracağıq.

***- Lakin bu qış üçün o, mümkün deyil, düzdür?***

- Texniki və kommersiya baxımından mümkün deyil. Cəmi bir və ya iki ay qalır. Lakin əgər indi başlasaq, fikrimcə, biz növbəti qış üçün hazır olacağıq. Həcmlərin artırılması üçün potensial var və üstəgəl, biz özümüz və xarici investorlar hazırda bərpa olunan enerjiyə sərmayə yatırırıq. Bu səbəbdən, özümüz istehlak etdiyimiz təbii qazı ixraca yönəldə biləcəyik, çünki bunu günəş və külək enerjisi ilə əvəz edəcəyik. Beləliklə, qeyd etdiyim kimi, bu halda potensial çox böyükdür. Boru kəməri istismar edilir. Gələcəkdə biz təchizatımızın coğrafiyasını Avropada Balkanlara və Şərqi Avropanın bir sıra digər ölkələrinə qədər genişləndirə bilərik. Bu, istehlakçılar və bizim üçün, o cümlədən şirkətlər və hər kəs üçün enerji təhlükəsizliyi baxımından yaxşı olardı.

***- Cənab Prezident, çox sağ olun. Çox təşəkkür edirəm.***

- Sağ olun, çox sağ olun. Sizə uğurlar arzu edirəm. Sağ olun.

## İspandilli mətbuat Azərbaycan Prezidentinin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsini geniş işıqlandırır

Azərbaycan Prezidenti İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi ispandilli KİV-lərin diqqət mərkəzindədir. AZƏRTAC xəbər verir ki, İspaniyanın EFE informasiya agentliyi, İsveçrənin ictimai teleradio yayım korporasiyası beynəlxalq onlayn-platformasının (SRG SSR) ispandilli SWI swissinfo.ch versiyası, aparıcı xəbər portalları (eldiario.es, timepost.es, spain.shafaqna.com, andaluciainformacion.es) Prezident İlham Əliyevin müsahibəsi haqqında materiallar dərc edib, müsahibədən sitatlar gətiriblər.

"İlham Əliyev Ermənistan ilə sülh sazişi üzərində işləməyə hazırdır", "Azərbaycan Avropaya qaz tədarükü həcmini artırmağa hazırdır" sərlövhəli məqalələrdə oxucuların diqqətinə çatdırılır ki, Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük müharibədən sonra Ermənistan ilə "normal münasibətlər yaratmaq" və "sülh sazişi üzərində işləmək" üçün Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqlar masası arxasında əyləşməyə hazır olduğunu bildirib.




Azərbaycan dövlətinin başçısı EFE agentliyinə müsahibəsində deyib: "Bizim mövqeyimiz müharibə bitəndən sonra dəyişməz olaraq qalır. Biz Ermənistanla hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında normal münasibətlər qurmaq istəyirik. Biz dərhal sərhədlərimizin delimitasiyasına və əlbəttə ki, bu proses bitəndən sonra demarkasiyasına başlamağa hazırıq".

EFE agentliyi yazır ki, 2020-ci ilin sentyabr-noyabr aylarında Qarabağ ətrafında aparılmış müharibədə qalib gəlmiş ölkə olan Azərbaycanın Prezidenti Azərbaycan tərəfin bu təşəbbüslərini dəfələrlə xatırlatmasını, lakin təəssüf ki, hələlik Ermənistandan müsbət cavab almadığını bildirib.

İspandilli mətbuatda qeyd edilir ki, Azərbaycan dövlətinin başçısı müharibənin başa çatmasını və tarixin bu fəslinin bağlandığını, buna görə də Ermənistanın siyasi dairələri arasında hələ də eşidilən qisas və ya işğaldan azad edilən ərazilərin qaytarılması planları barədə bəyanatlara yer olmadığını vurğulayıb. Məqalələrdə Azərbaycan Prezidentinin müsahibəsindən bu sözlər sitat gətirilir: "Demək olar ki, 30 illik danışıqlar prosesi ərzində Azərbaycanın mövqeyi çox konstruktiv olmuşdur. Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə verməyə hazır idik".

İspan mətbuatı yazır ki, Azərbaycan gələn il Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya əlavə qaz tədarük edilməsi barədə danışıqlar aparmağa hazırdır.

Prezident İlham Əliyev deyib: "Biz təbii qazımızı Avropaya ixrac etməyə 2020-ci il dekabrın 31-də başladıq. Həmin vaxtdan etibarən ixracımızın profili artmaqdadır. Biz uzun illər, 15 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısıyıq və hər hansı fasilə olmayıb. İndi isə təbii qazın etibarlı təchizatçısı kimi biz öz rolumuzu oynayırıq".

# İlham Əliyev:

## Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq!



### Prezident İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Tərtər şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Dövlətimizin başçısı Tərtərin Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını edib. Prezident İlham Əliyev Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub.

Dövlətimizin başçısı Tərtər rayonunun Talış kəndində və Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldıb. Azərbaycan Prezidenti Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi və pravoslav kilsələrində olub. Prezident İlham Əliyev "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışını edib.



Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin "Smerç" raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxıb və onun yerinə inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olub. Prezident İlham Əliyev rayon mərkəzində Ermənistan silahlı birləşmələri tərəfindən Tərtər rayonuna müxtəlif tipli reaktiv yaylım atəşi sistemləri və artilleriya qurğularından atılmış mərmilərə baxıb.

Dövlətimizin başçısı Bərdə rayonuna gəlib. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin Bərdə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub. Prezident İlham Əliyev Bərdə Peşə Liseyinin açılışında iştirak edib. Səfərdən geniş reportaj oktyabrın 4-də təqdim olunacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını edib. Ümumi uzunluğu 28,5 kilometr, eni 9 metr olan yol 2 hərəkət zolağından ibarətdir. Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yolları uzun müddət düşmən tapdağı altında olduğundan tamamilə sıradan çıxmış və dağılmışdır.

Yolda aparılan tikinti işləri inşaat norma və qaydalarının tələblərinə uyğun yüksək keyfiyyətlə həyata keçirilib. Yolboyu layihə üzrə avtobus dayanacaqları inşa edilib, hərəkətin normal təşkili üçün digər zəruri infrastruktur yaradılıb. Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yolları ötən əsrin 70-ci illərində Suqovuşan su anbarının tikintisi ilə əlaqədar ulu öndər Heydər Əliyevin tapşırığına əsasən inşa edilib.

Qeyd edək ki, Suqovuşan-Xan arxının 37 kilometr betonlama işinin layihəsi də artıq hazırlanıb. Suqovuşanın işğaldan azad olunması ilə Bərdə, Goranboy, Naftalan, Yevlax, Ağcabədi rayonları daxil olmaqla təxminən 30 min hektara yaxın əraziyə ilk dəfə su verilib. Bu da fermerlərə növbəli əkini təmin etməyə imkan yaradıb. Fermerlər artıq iki mərhələdə işləyə bilirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub. Tərtərin Talış kəndindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndini keçməklə Naftalan şəhərinə doğru yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin etməklə bərabər bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Bu yolun istifadəyə verilməsi nəticəsində Tərtər şəhəri ilə yanaşı alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə hərəkət etmək mümkün olacaq. Yolun ümumi uzunluğu 22 kilometr təşkil edəcək.

> "Təsadüfi deyil ki, Ermənistan ordusunda on mindən çox fərari olmuşdur. Onlar görürdülər ki, bizim qabağımızda dura bilmirlər. Görürdülər ki, onların hakimiyyəti onlara yalan danışır, onları ölümə göndərir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Talış kəndində Azərbaycan bayrağını ucaldıb. Daha sonra dövlətimizin başçısı çıxış edib:

-Talış kəndi düz bir il bundan əvvəl Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edildi. Bir ildən sonra mən buradayam, Azərbaycan torpağında, azad edilmiş Talış kəndində və Azərbaycan bayrağını Talış kəndində ucaltmışam.

Bir il bundan əvvəl burada şiddətli döyüşlər gedib, şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Talış kəndinin işğaldan azad edilməsi uğurlu əməliyyatlarımız arasında xüsusi yerə malikdir. Çünki burada çox güclü istehkamlar qurulmuşdu, düşmən burada bir neçə müdafiə xətti qurmuşdu və əlbəttə ki, bizi buradan gözləyirdi. Bir çox əməliyyatlarda biz düşmənin gözləmədiyi yerlərdən əks-hücum etmişdik. Ancaq bu istiqamətdə, burada döyüş meydanı kifayət qədər ensizdir, kifayət qədər məhduddur, ona görə, təbii ki, düşmən bizi burada gözləyirdi və biz də gəldik, heç nəyə baxmadan gəldik. Qan tökərək, şəhidlər verərək gəldik, Talış və Suqovuşan kəndlərini düz bir il bundan əvvəl işğaldan azad etdik. Bu, bizə çox böyük strateji üstünlük verdi. Bu, bir daha göstərdi ki, Azərbaycan Ordusunun qabağında Ermənistan ordusu acizdir, dayana bilməz və Qələbə uzaqda deyil. Bu gün Azərbaycanın suverenliyi bu bölgədə tam təmin edilib, bir il ərzində böyük infrastruktur işləri görülüb. Əsas odur ki, burada Azərbaycan vətəndaşları sülh, əmin-amanlıq şəraitində yaşayacaqlar. Əlbəttə ki, biz Talış kəndini bərpa edəcəyik, buraya həyat qayıdacaqdır.

X X X

Sonra Prezident İlham Əliyev Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi kilsəsində olub.

Dövlətimizin başçısı: Bu da qədim alban kilsəsidir. Görün, ermənilər bu kilsəni nə günə salıblar. Sonra da deyəcəklər ki, guya bu, erməni kilsəsidir. Erməni kilsəsi olsaydı, bu günə salardılar?! Tarixi abidə kimi qorunacaq. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur. Bütün dini konfessiyaların abidələri bundan sonra da qorunacaqdır. Biz bu qədim alban kilsəsini də bərpa edəcəyik. Ermənilər 30 il ərzində bu bölgəni ancaq dağıdıblar.

İcra hakimiyyətinin başçısı Müstəqim Məmmədov: Buranı özləri suvayıblar ki, alban-udi kilsəsi olduğu bilinməsin. Yəni, saxtakarlıq ediblər.

Prezident İlham Əliyev: Ancaq saxtakarlıq. Bütün dünya da görsün ki, ermənilər alban kilsəsini nə günə qoyublar.

X X X

Daha sonra kənddəki rus-pravoslav kilsəsində olan Prezident İlham Əliyev dedi: Bu da Talış kəndində yerləşən rus-pravoslav kilsəsidir. Bunu da ermənilər dağıdıblar. Görün, nə gündədir, daşları da sökülübər, divarları da sökülüblər. İndiki vəziyyəti bax, budur. Biz bu kilsəni də bərpa edəcəyik, təmir edəcəyik. Ermənilərdən fərqli olaraq biz bütün dini abidələrə hörmətlə yanaşırıq. Bu binalar isə onların hərbi hissəsi olub.




Ardı Səh. 5

# İlham Əliyev:

## Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq!

### Prezident İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub

Əvvəli Səh. 4

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldıb. Dövlətimizin başçısı çıxış edərək bildirib ki, müharibənin ilk günlərində strateji qəsəbəni işğaldan azad etmək böyük uğurumuz idi, böyük qələbəmiz idi:

"Bir il bundan əvvəl, oktyabrın 3-də Suqovuşan qəsəbəsi işğaldan azad edilmişdir. Bu, çox əlamətdar hadisə idi, müharibənin ilk günlərində strateji qəsəbəni işğaldan azad etmək böyük uğurumuz idi, böyük qələbəmiz idi. Bu qəsəbənin işğaldan azad edilməsi zamanı şəhidlərimiz oldu, qazilərimiz oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralananlara şəfa versin.

Biz keçən ayın 27-də Anım Gününü keçirərkən Vətən uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin xatirəsini bir daha böyük hörmətlə yad etdik.

Suqovuşan qəsəbəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynayırdı və qəsəbənin əlimizdə olması bizə gələcək əməliyyatlarımızda üstünlük təşkil edirdi. Düşmən yəqin ki və təbii ki, bilirdi, biz bu istiqamətdən hərəkətə keçəcəyik. Talış kəndi və Suqovuşan qəsəbəsi bir gündə - keçən il oktyabrın 3-də işğaldan azad edilmişdir. Burada çox güclü istehkamlar qurulmuşdu, bir neçə müdafiə xətti təşkil edilmişdi. Bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi. Suqovuşan qəsəbəsinin və Talış kəndinin azad edilməsinin digər əhəmiyyətli tərəfi ondan ibarətdir ki, birinci azad edilmiş kəndlərdən sonra, - birinci kəndlər sentyabrın 27-də müharibənin ilk günündə azad edilmişdi - 6 kənd, - oktyabrın 3-nə qədər hər hansı bir yaşayış məntəqəsi azad edilməmişdi. Bunun təbii səbəbləri var idi, hazırlıq gedirdi, manevrlər gedirdi, şiddətli döyüşlər gedirdi. Ancaq müharibənin ilk günündə əldə edilmiş qələbələrdən sonra növbəti yaşayış məntəqələrinin azad edilməsi, əlbəttə ki, ordumuza, xalqımıza əlavə güc, mənəvi güc verdi və müharibənin yeddinci günündə səkkiz kəndin azad edilməsi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşmiş bu kəndlərin azad edilməsi bizə böyük mənəvi üstünlük verirdi.

Bu kəndlərin strateji əhəmiyyəti ondadır ki, burada düşmənin çox böyük canlı qüvvəsi yerləşmişdi. Bu kəndlərin azad olunması bizim bu bölgədəki strateji yollara da nəzarətimizi təmin etdi və düşmənin canlı qüvvəsinin hərəkəti üçün, manevrləri üçün çox böyük problemlər yaradıldı, məhdudiyyət yaradıldı. Talış kəndinin və Suqovuşan qəsəbəsinin yerləşdiyi ərazidə düşmənin çox böyük canlı qüvvəsi yerləşmişdi və demək olar ki, müharibənin son gününə qədər bu canlı qüvvə digər əməliyyatlarda iştirak edə bilmirdi. Birinci növbədə ona görə ki, strateji yollar artıq bizim nəzarətimizdə idi, ikincisi ona görə ki, əgər buradan düşmən öz canlı qüvvəsini başqa yerlərə çəksəydi, əlbəttə, Azərbaycan Ordusu bu istiqamətdə bundan sonra da böyük dərəcədə irəliləyə bilərdi. Ona görə bizim taktiki addımlarımız və manevr etmək imkanlarımız düşünülmüş addımlar idi və demək olar ki, burada düşmənin böyük bir hərbi birləşməsi iflic vəziyyətdə qalmışdı.

Suqovuşan qəsəbəsinin əhəmiyyəti, eyni zamanda, ondadır ki, burada Suqovuşan su anbarı yerləşir. Su anbarının çox böyük strateji əhəmiyyəti var. Bu su anbarı Sərsəng su anbarı ilə bərabər ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edilmişdir. Bu su anbarlarının əsas məqsədi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarının kənarında yerləşən rayonlara - Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara su vermək idi. İşğal zamanı mənfur düşmən bizə qarşı ekoloji terror da törədirdi, su terroru törədirdi. Hətta Avropa Şurası Parlament Assambleyasının sessiyalarının birində bu məsələ ilə bağlı xüsusi məruzə təqdim olunmuşdu və məruzə qəbul edilmişdi, qətnamə qəbul edilmişdi. Ermənistan dövləti ittiham edilmişdi və bu, bizim böyük uğurumuz idi. Təsadüfi deyil ki, ondan sonra bu məruzəni hazırlayanlara qarşı erməni lobbi təşkilatları mənəvi terror siyasəti aparmağa başlamışdı. İşğal dövründə ermənilər yay mövsümündə suyu kəsirdilər, qış mövsümündə isə suyu buraxırdılar. Yayda bizim kəndlilərimiz, fermerlərimiz susuz qalırdı, qışda isə suyu buraxıb daşqınlara səbəb olan təbii fəlakət törədirdilər. Yəni bu, bir daha göstərir ki, biz hansı çirkin düşmənlə üz-üzəydik. Onlar bütün imkanlardan istifadə edib bizə daha böyük ziyan vurmaqla məşğul idilər. Suqovuşan qəsəbəsinin azad edilməsi və su anbarının bizim nəzarətimizə keçməsi nəticəsində artıq Ermənistan dövlətinin bu imkanları da onların əlindən çıxdı. İndi buraya biz hakimik. Bu il Suqovuşan su anbarından istifadə edərək 30 il ərzində ilk dəfə olaraq Tərtər və digər rayonlara su verildi.

Ardı Səh. 6



> "Mən ona Serjik Sarkisyan ona görə demirəm ki, onu alçaltmaq istəyirəm, ona görə ki, bu, onun əsl adı və soyadıdır. Bizim arxivlərimizdə bu məlumatlar var. Onun "metirka"sında, yəni, doğum haqqında şəhadətnaməsində, onun komsomol biletində Sarkisyan Serjik yazılıbdır. Sonra bunu edib Sarkisyan Serj. Guya "Serj", necə deyərlər, məqbul bir addır"



> "Bizim azad edilmiş torpaqlarda - Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı konkret addımlar atılır və çox ciddi proqram icra edilməkdədir. Artıq su mənbələrinin bütün xəritələri tərtib edilib və yeni su anbarlarının tikintisi gündəlikdə duran məsələdir"





# İlham Əliyev:

## Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq!

### Prezident İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub

Əvvəli Səh. 5

Bu günə qədər suvarılmayan, yaxud da ki, az suvarılan 30 min hektar torpağa bu qəsəbənin azad edilməsi nəticəsində su verilmişdir və indi kanallarda təmir işləri gedir. Bizim azad edilmiş torpaqlarda - Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı konkret addımlar atılır və çox ciddi proqram icra edilməkdədir. Artıq su mənbələrinin bütün xəritələri tərtib edilib və yeni su anbarlarının tikintisi gündəlikdə duran məsələdir.

Eyni zamanda, vaxtilə sovet dövründə su anbarının yanında ulu öndər Heydər Əliyev tərəfindən iki su elektrik stansiyası inşa edilmişdi. Müharibə zamanı düşmən bu stansiyaları da dağıtmışdır. Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyası müharibə zamanı və müharibədən sonra ki, onlara bu rayonlardan çıxmağa vaxt verilmişdi, ermənilər onları dağıtmışdılar, onların bərpası gedir. O cümlədən, ilk növbədə, "Suqovuşan-1" və "Suqovuşan-2" su elektrik stansiyalarının bərpası ilə bağlı işlər görülməyə başlanmışdır və artıq bu stansiyalar işlək vəziyyətdədir. Onlar yenidən quruldu, yenidən tikildi. Bu, bir daha bizim gücümüzü və siyasətimizi göstərir. Biz infrastruktur layihələrinin icrası ilə bağlı çox ciddi addımlar atırıq və müharibənin başa çatmasından hələ bir il keçməyib, görün nə qədər böyük işlər görülür. Bu bölgəni elektrik enerjisi və su ilə təmin etmək üçün Suqovuşan qəsəbəsinin xüsusi əhəmiyyəti var. Bu qəsəbənin azad edilməsinin digər önəmli tərəfi, bir daha demək istəyirəm ki, mənəvi-psixoloji üstünlüyümüzün daha da möhkəmləndirilməsidir.

İndi əgər müharibənin xronologiyasına baxsaq, görərik ki, sentyabrın 27-də 6 kənd, Murovdağ silsiləsi, Ağdərə dağları, oktyabrın 3-də isə 8 kənd, o cümlədən Suqovuşan qəsəbəsi və Talış kəndi azad edildi. Oktyabrın 4-də bir çox kəndlər azad edildi, o cümlədən Cəbrayıl şəhəri.

Yəni, bu, ordumuza əlavə güc verdi, mənəvi ruh verdi. Bu mənəvi üstünlüyü biz müharibənin son gününə qədər, son dəqiqəsinə qədər saxlamışdıq. Düşmən artıq başa düşməyə başladı ki, onların bütün təbliğatı, bütün yalanları, sadəcə olaraq, uydurmadır. Çünki baxmayaraq ki, düşmənin təbliğatı taktiki geriləmə haqqında gecə-gündüz yalan informasiyalar yayırdı, bu haqda cəfəng məlumatlar ötürürdü. Bu, dünya hərb praktikasında yəqin ki, bir yenilikdir. Onlar orada artıq götürdüyümüz şəhər və kəndlərimizi döyüş gedən kənd və şəhərlər kimi təqdim edirdilər. Ancaq real həyatda, real döyüşlərdə artıq hər kəs hər şeyi gördü. O cümlədən Ermənistan ordusunda xidmət edən şəxsi heyət gördü ki, biz qələbə çalırıq, biz qabağa gedirik, bizi heç bir qüvvə dayandıra bilməz. Əgər hərbi nöqteyi-nəzərdən götürülməsi demək olar ki, mümkünsüz sayılan Talış və Suqovuşan Azərbaycan Ordusu tərəfindən götürülübsə, onlar tam yəqin edə bilərdilər ki, bundan sonra da Qələbə salnaməmiz davam edəcək.

Əlbəttə ki, Ermənistan ordusu, şəxsi heyət dərin mənəvi-psixoloji sarsıntı içində idi. Onların gözü qorxmuşdu və əlbəttə, bundan sonrakı dövrdə - oktyabrın 3-dən müharibənin son dəqiqələrinə qədər Ermənistan ordusu qorxu içində idi. Təsadüfi deyil ki, Ermənistan ordusunda on mindən çox fərari olmuşdur. Onlar görürdülər ki, bizim qabağımızda dura bilmirlər. Görürdülər ki, onların hakimiyyəti onlara yalan danışır, onları ölümə göndərir. Mənasız əməliyyatlar həyata keçirir ki, bu əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti faktiki olaraq qurban kimi verilir. On min fərarisi olan ordu, əlbəttə ki, müqavimət göstərə bilməzdi.





Bundan sonrakı dövrdə Azərbaycan Ordusunun, Silahlı Qüvvələrimizin şanlı Zəfər yürüşü davam etmişdir. Düzdür, bəzi yerlərdə Ermənistan tərəfi direniş göstərirdi, müqavimət göstərirdi, bəzi yerlərdə bizə çətinliklər yaradırdı. Amma bu, müharibədir. Özü də otuz il ərzində böyük istehkamlar qurmuş tərəf, - bu dağlara baxın, bunlar hamısı təbii istehkamlardır, - əlbəttə ki, onların özlərini müdafiə etmək üçün imkanları var idi. Ancaq artıq bilirdilər ki, bizim qabağımızda dura bilməzlər. On min fərari artıq hər şeyi göstərir.




Bu fərarilərin içində Ermənistanın keçmiş prezidenti Serjik Sarkisyan da var idi. Bu yaxınlarda mənə verilən məlumata görə, o, haradasa Azərbaycan haqqında, Ulu Öndər haqqında öz səviyyəsinə uyğun çirkin sözlər ifadə etmişdir. Birinci fərari elə odur. Çünki o, müharibə zamanı Xankəndiyə soxulmuşdu, guya orada hansısa işlər görəcək. Amma görəndə ki, Azərbaycan Ordusu artıq gəlir və onun qulağından tutub Bakıya gətirə bilər, qorxaqcasına oradan fərari kimi qaçmışdır. Mən ona Serjik Sarkisyan ona görə demirəm ki, onu alçaltmaq istəyirəm, ona görə ki, bu, onun əsl adı və soyadıdır. Bizim arxivlərimizdə bu məlumatlar var. Onun "metirka"sında, yəni, doğum haqqında şəhadətnaməsində, onun komsomol biletində Sarkisyan Serjik yazılıbdır. Sonra bunu edib Sarkisyan Serj. Guya "Serj", necə deyərlər, məqbul bir addır.

Bu adam ömrü boyu oğru, cinayətkar, saxtakar, xain, satqın, fərari kimi tanınıb. Serjikin oğurluğu haqqında Ermənistanda bilməyən yoxdur. Bu gün onunla əlbir olan "müharibə qəhrəmanları" artıq ya həbsdədir, ya cəhənnəmdədir. "Tuşonka" satan və artıq cəhənnəmdə yanan, Serjikin sağ əli olan "general" Ermənistan ordusunun və Serjikin əsl simasını göstərir. Müharibə zamanı "tuşonka" satan general hansı sözlərə layiqdir? Serjikin sağ əli olan, müharibə dövründə müdafiə naziri vəzifəsində çalışan hərbi cinayətkar bu yaxınlarda Ermənistanda həbs edildi, oğurluğa görə. Nasaz silahlar alırdı, pullarını da qoyurdu cibinə. Bu haqda bizdə kifayət qədər məlumatlar var, həm müharibədən əvvəl, həm müharibə zamanı hansı əməllərdən çıxırdılar. Ayaqları altında torpaq yanırdı, Azərbaycan Ordusu hər gün irəli gedirdi, Ermənistan müdafiə naziri kontraktlar imzalayıb, nasaz silahlar aldırıb, qiymət fərqini də cibinə qoyurdu. Onlar Serjikin yetirmələridir, onun kimi oğrulardır.

Mən deyəndə ki, Serjik hərbi cinayətkardır, bunu təkcə mən demirəm, bunu bölgə ilə tanış olan bütün qərəzsiz və müstəqil politoloqlar, jurnalistlər deyirlər. Britaniyalı jurnalistə verdiyi müsahibədə demişdi ki, Xocalı soyqırımını şəxsən özü törədib. Bunun da izahatını vermişdi ki, azərbaycanlılar bilməlidirlər, Ermənistan ordusu dinc əhaliyə qarşı silah qaldıra bilər. Bu qanlı cinayətkar Serjik Sarkisyandır. Xain deyirəm, bu, təhqir deyil. O, hər addımbaşı xəyanət edib. Birincisi, çörəyini yediyi Azərbaycan xalqına. İkincisi, onun rəhbəri olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin birinci katibi Gevorkova ki, onun yavəri olub, onun qovluq daşıyanı olub. Bu, onun tərcümeyi-halında da var, bəlkə də onu sildirib, amma bizim arxivlərdə var. Çünki onun vəzifələrə təyin olunması Bakıdan keçirdi. Bizim arxivlərdə hər şey var. Serjik Sarkisyan Boris Gevorkovun rəsmən köməkçisi vəzifəsini daşıyırdı, amma faktiki olaraq nökəri, kabab bişirəni və istirahət məclislərinin təşkilatçısı funksiyasını yerinə yetirirdi. Sonra nə oldu? Sonra separatist hərəkat başlayan kimi Serjik Gevorkovu satdı, xəyanət etdi. Bu, ikinci xəyanət. Üçüncü xəyanət onun rəhbəri olan Koçaryana qarşı idi. İndi Ermənistanda bunu bilməyən yoxdur. Serjiki qulağından tutub vəzifələrə gətirən Koçaryan olmuşdur. Bütün vəzifələrə onu o, təyin edib. Prezident vəzifəsinə də zorla o, təyin etdirib. Halbuki erməni xalqı Serjikə nifrət edirdi. Ondan sonra nə oldu? Heç bir il keçmədi Koçaryanı artıq kənara qoydu, heç telefonlarına da cavab vermirdi. Görün, bu, nə qədər alçaq xislətli bir ünsürdür.

Müharibə ilə bağlı təhlillər onu bir daha göstərir ki, bu müharibənin uduzan tərəfi məhz Serjik Sarkisyan və onun kimilərdir. İndi o, məğlubiyyəti Paşinyanın üstünə atmaq istəyir. Guya Paşinyan günahkardır. Paşinyan 2018-ci ildə hakimiyyətə gəlib. O, cəmi iki il ərzində ordu yarada bilərdi? Yaxud da ki, "möhkəm", "güclü ordu"nu dağıda bilərdi? Bu ordunu yaradan Serjikdir. Serjik Ermənistanda müdafiə naziri olub. Serjik Ermənistanda baş nazir olub. Prezident Administrasiyasının rəhbəri olub, Təhlükəsizlik Nazirliyinin rəhbəri olub. Prezident olub 10 il ərzində. Bu ordunu yaradan Serjik deyil, kimdir? Biz o ordunu məhv etməklə Serjiki və onun kimi ünsürləri məhv etdik. Qoy o, bu məğlubiyyəti Paşinyanın üstünə atmasın. Paşinyan nə edib, o başqa məsələdir.



Ardı Səh. 7

# İlham Əliyev:

## Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq!

### Prezident İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub

Əvvəli Səh. 6

Ancaq biz Serjiki məğlub etmişik, onu diz çökdürmüşük, onun belini qırmışıq. O, bizim qabağımızda, onun qurduğu ordu bizim qabağımızda diz çöküb. Bu gün mən buradayam, Ali Baş Komandan kimi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəyəm. Serjikin kişiliyi çatırsa, gəlsin bura. O, kişilikdən danışır. Qafqazda kişilikdən danışır. Birincisi Qafqaza bunun millətinin heç bir aidiyyəti yoxdur. Onlar gəlmədirlər, haradan gəliblər, hamı yaxşı bilir. İkincisi, kişilikdən danışırsansa, gəl kişi kimi buraya. Bax, mən burada dayanmışam. Sənin "Madagiz" adlandırdığın Suqovuşanda dayanmışam. Kişiliyin varsa, gəl buraya. Yoxsa orada - İrəvanda oturub banlamaqla özündən qəhrəman düzəldə bilməzsən. Demişəm bir dəfə, hələ sinəsində gəzdirdiyi o dəmir-dümürləri zibil yeşiyinə atsın. Onların heç bir qəpik də qiyməti yoxdur. Ona ən yaxşı cəzanı da erməni xalqı verib, 2018-ci ildə bir təpiklə onu vəzifədən qovub. 2018-ci ildə seçkilərdə növbəti saxtakarlıq törədərək özünə 50 faizdən çox səs yazdırıb. Bu cinayətin şəriki ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosudur. Çünki onlar Serjiklə əlbir olaraq, - bilmirəm, sövdələşmə nəyin əsasında olub, amma təxmin edə bilərəm, - onun qələbəsini tanıyıblar. Bu adamı Ermənistanda kütləvi surətdə lağa qoyurlar, ələ salırlar, ona nifrət edirlər. O, seçkilərdə özünə 50 faizdən çox səs yazdırır, özünü baş nazir təyin etdirir və ATƏT də buna göz yumur, buna razılıq verir. Bax, iki saxtakar - biri ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, hansı ki, Azərbaycana hər zaman xor baxır, biri də Serjik. Nə oldu, sonra erməni xalqı qalxdı. Erməni xalqı qalxıb bir təpiklə onu vurub atdı çölə. Ondan sonra nə etdi? Ondan sonra məzlumcasına gəlib dedi ki, mən haqlı deyildim, Nikol haqlı idi. Özünə kişi deyən adam belə söz deyər?! Özünə kişi deyən adam bu qədər özünü alçaldar?! Bax, bunu belə heç ediblər. Ondan sonra iki il ərzində ağzına su alıb susmuşdu. Nə qədər onu təhqir etdilər. Nə qədər onun cinayətkar qohumlarını həbs etdilər. Xaricdə gizlənmiş və Kolumbiyanın, ya da Qvatemalanın pasportunu almış bir yaxın qohumu var, adını da dəyişdirmişdi. Necə ki, vaxtilə Serjik özünü "Serj" edib. Qohumu da özünə bir ad verib - "Qonzales". Qulağından tutub gətiriblər və həbs ediblər. Qorxusundan susub, nə desin? Müharibədən sonra yenə baş qaldırır. Müharibə olmasaydı, bu acı məğlubiyyət olmasaydı, Serjik də indi həbsxanada idi. Onun kimi oğru bizim bölgədə bəlkə də hələ doğulmayıb.

Bu gün İrəvanda oturub, öz çirkin ağzını açıb mənim atamın haqqında söz demək ona çox baha başa gələr. Artıq onun qulağından tutub dartmağımıza az qalmışdı. O da yenə haradansa öyrənib, bilib və Xankəndidən qaça-qaça gedib oturub İrəvanda. Bu yaxınlarda keçirilmiş seçkilərdə görün, heç beş faiz səs toplaya bilməyib. Görün, erməni xalqı bu məxluqa nə qədər nifrət edir ki, hətta müharibədə günahkar sayılan iqtidara daha çox səs verdi, nəinki ona. Odur ki, bir də deyirəm, bax, mən buradayam, Suqovuşandayam, mən Şuşadayam, mən Hadrutdayam, mən Xocavənddəyəm, hər yerdəyəm. Siz haradasınız?! Cəhənnəmdə, gorbagor statusla bir yerdə. Vəssalam, qurtardı, bitdi.

Bu sözləri deməklə, təkcə öz çirkin ağzını açaraq cəfəng sözləri deyən, naftalin qoxusu verən bir ünsürə cavab vermirəm. Bütün Ermənistanda onun kimilərə, bütün revanşist hisslərlə yaşayanlara müraciət edirəm - ağlınızı yığın başınıza. Dəmir yumruq buradadır, heç yerə getməyib, yerindədir. Bizi əsəbiləşdirməyin, özünüzü yaxşı aparın. Özünüzü yaxşı aparsanız, onda rahat yaşaya bilərsiniz. Yox, əgər bir daha bizə qarşı hər hansı bir təxribat, bəyanat, hərəkət olarsa, heç kimə baxmadan başınızı əzəcəyik. Heç kim də sizi müdafiə edə bilməz.

Bu gün Suqovuşanda və Talış kəndində olarkən bir daha xalqımızın, Silahlı Qüvvələrimizin qəhrəmanlığını görürəm. Buraya gələn hər kəs bunu görür və görəcək. Çünki bu yerləri işğaldan azad etmək, ölümə getmək, bax, xalqımızın böyüklüyünü göstərir.

Bu gün hər iki kənddə Dövlət bayrağını ucaldaraq şəhidlərimizin əziz xatirəsinə bir daha ehtiramımı bildirirəm. Azərbaycan xalqına da təşəkkürümü bildirirəm ki, müharibə dövründə bir yumruq kimi birləşib orduya dayaq oldu, mənə arxa oldu və biz bunun hesabına düşmənin başını əzdik, Qələbə çaldıq. Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Oktyabrın 3-də Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına "Suqovuşan-1" stansiyasında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Suqovuşan-1" Kiçik Su Elektrik Stansiyasında ildə 13,8 milyon kVt/saat elektrik enerjisi istehsal olunacaq. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci ilin oktyabrın 3-də işğaldan azad etdiyi Tərtər rayonunun Suqovuşan qəsəbəsindəki "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik Stansiyalarının ümumi gücü 7,8 meqavatdır. Erməni qəsbkarları döyüşlər zamanı 4,8 meqavat gücündə "Suqovuşan-1" və 3 meqavat gücündə "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yararlı ehtiyat hissələrini sökub daşıyıb, apara bilmədiklərini isə dağıdıblar. Həmçinin döyüşlər zamanı bu elektrik stansiyalarına ciddi ziyan dəyib və nəticədə onlar tamamilə yararsız vəziyyətə düşüb. Prezident İlham Əliyev "Suqovuşan-2" Kiçik Su Elektrik Stansiyası ilə də tanış oldu.

Diqqətə çatdırılıb ki, hər iki stansiya əsaslı şəkildə yenidən qurulub, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənib. "Suqovuşan-2" stansiyasında ildə 8,7 milyon kVt/saat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub. Dövlətimizin başçısı stansiyaları işə saldı.




Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin "Smerç" raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxıb və onun əvəzinə inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində Tərtərdə ümumilikdə 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanıb. Müharibə zamanı, həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılıb. Nəticədə Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəyib.

Sakinləri salamlayan Prezident İlham Əliyev dedi: Əvvəlki ev haradadır?

İcra hakimiyyətinin başçısı Müstəqim Məmmədov: Əvvəlki ev buradadır. Oktyabrın 26-da şəhərin mərkəzinə atılan üç "Smerç" raketindən biri buraya düşmüşdü.

Prezident İlham Əliyev: "Smerç" düşmüşdü buraya?

Müstəqim Məmmədov: Bəli, "Smerç" düşmüşdü, yan-yana olan bu iki evi dağıtmışdı. Biri də oradadır.

Prezident İlham Əliyev: Əvvəlki ev budur?

Müstəqim Məmmədov: Bəli.

Prezident İlham Əliyev: Burada yaşayıblar?

Müstəqim Məmmədov: Bəli. Kəlbəcər rayonunun Susuzluq kəndindən.

Prezident İlham Əliyev: Buraya mərmi düşəndə harada idiniz?

Sakin: Təxminən 15-20 dəqiqə əvvəl sığınacağa getmişdik.

Prezident İlham Əliyev: Ümumi 30 mindən çox mərmi düşüb, 16 mini Tərtərə.

Müstəqim Məmmədov: Bəli.

Prezident İlham Əliyev: İndi bərpa işləri necə gedir?

Müstəqim Məmmədov: Cənab Prezident, demək olar ki, 62 ev dağılmışdı. Onların 36-sı tamamilə hazırdır, təhvil verilib, 26-da isə son tamamlama işləri yaxın günlərdə başa çatacaq.

Prezident İlham Əliyev: Məndəki arayışda göstərilir ki, Tərtərdə bərpa olunan yaşayış fondunun 84 faizi artıq təmin edilib.

Müstəqim Məmmədov: Bəli, tamamilə təmin olunub.

Prezident İlham Əliyev: Yəni, bir il ərzində 84 faizi.

Müstəqim Məmmədov: 82 yaşayış binasının hamısı dam örtüyü ilə təmin olunub.

Prezident İlham Əliyev: Məktəblər necə? Burada 17 məktəb dağılıb.

Müstəqim Məmmədov: Bəli, 17 məktəb təmir olunub. Sizin Sərəncamınızla modul tipli bir məktəb tikilir, hazırdır. 5 saylı şəhər məktəbinin isə artıq layihə-smeta sənədləri hazırlanıb, yaxın günlərdə inşasına başlayacağıq.

Prezident İlham Əliyev: Sonra sahibkarlıq obyektləri?

Müstəqim Məmmədov: 184 sahibkarlıq obyekti dağılmışdı, onların da artıq hamısı təmir olunub. 301 qeyri-yaşayış sahəsi dağıdılmışdı. Möhtərəm Prezident, əmlakına dəyən ziyana görə Sizin Sərəncamınızla bütün insanlara 6 milyon 202 min manat kompensasiya ödənilib, 545 baş heyvan üçün kompensasiya ödənilib. Ümumilikdə 6 milyon 794 min 200 manat verilib. Hətta əkin sahələrinə ziyan dəyənlərə də ödənilib. Yəni, əkin sahələrində səngər qazılanlara, mərmi düşməsi nəticəsində dağılanlara. Yəni, insanların bütün təbəqələrinin hamısına kompensasiyalar ödənilib.

Prezident İlham Əliyev: Nə ilə dolanırsınız, nədir işiniz?

Sakin: Dolanışığımız tinkçiliklədir.

Müstəqim Məmmədov: Tingçilik, heyvandarlıq.

Prezident İlham Əliyev: Heyvandarlıq? Mal-qara saxlayırsınız?

Sakin: Bəli. Ürəyimiz elə Kəlbəcəri deyir, cənab Ali Baş Komandan.

Prezident İlham Əliyev: Kəlbəcər kimi gözəl yer bəlkə də dünyada yoxdur.

Sakin: Bəli.

Prezident İlham Əliyev: Gəlin, burada şəkil çəkdirək.

X X X

Xatirə şəkli çəkdirildi.

X X X

Prezident İlham Əliyev: Sağ olun.

Sakinlər: Sağ olun.

X X X

Sonra Prezident İlham Əliyev Tərtər şəhərinin mərkəzində Ermənistan silahlı birləşmələri tərəfindən rayona müxtəlif tipli reaktiv yaylım atəşi sistemləri və artilleriya qurğularından atılmış mərmilərə baxıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Bərdə rayonuna səfərə gəlib.

Oktyabrın 3-də Bərdə Peşə Liseyinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısına məlumat verildi ki, liseyin 5 bloklu tədris korpusunda sinif otaqları, laboratoriyalar, silah kabineti, idman və akt zalları, yeməkxana, emalatxana, iclas zalı və digər zəruri otaqlar vardır. Burada şagirdlərin mükəmməl peşə biliklərinə yiyələnməsi üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, ölkəmizdə peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bu sahədə peşəkar tədris prosesinin qurulması, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. Son dövrlər paytaxt Bakı ilə yanaşı, bölgələrdə də yeni peşə təhsili müəssisələri qurulur. Yeni istifadəyə verilən Bərdə Peşə Liseyi də bu istiqamətdə həyata keçirilən layihələrdən biridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Cəbrayılda "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlini qoyub.

Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub.

Dövlətimizin başçısı 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının açılışında iştirak edib. Prezident İlham Əliyev Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısı Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini qoyub. Sonra Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoyub.






# Gəncədə Ümumrespublika “Xəmsə” Festivalının bağlanış mərasimi keçirilib

**Oktyabrın 2-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkilatçılığı ilə “Nizami Gəncəvi İli” çərçivəsində keçirilən Ümumrespublika “Xəmsə” Festivalının Gəncə şəhərində final mərhələsi və bağlanış mərasimi olub.**

Günün birinci yarısında festival iştirakçıları Gəncədə Nizami Gəncəvinin məqbərəsini və Nizami Gəncəvi Muzeyini ziyarət ediblər. Sonra Gəncə Şəhidlər xiyabanında şəhidlərimizin xatirəsi anılıb.

Ümumrespublika “Xəmsə” Festivalının 9
















regional turunda finala vəsiqə qazanan 16 komanda Gəncə Şəhər Heydər Əliyev Mərkəzində final mərhələsi üzrə qrup və yarımfinal oyunlarında birincilik uğrunda mübarizə aparıb. Final oyununun nəticələrinə əsasən Səbail komandası birinci, Gəncə komandası ikinci və Ucar komandası üçüncü yerin sahibi olub.

Heydər Əliyev Park Kompleksində Ulu Öndərin abidəsi önünə tər gül dəstələri düzülüb, dahi rəhbərin əziz xatirəsi böyük ehtiramla yad edilib.

Daha sonra Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş ağacəkmə kampaniyası keçirilib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında bildirib ki, Gəncə şəhərinin Azərbaycan tarixində özünəməxsus yeri var. Bu şəhər, eyni zamanda, Azərbaycan ədəbi xəzinəsinə misilsiz töhfələr vermiş Nizami Gəncəvinin vətənidir. Həmçinin Azərbaycan Demokratik Respublikasının ilk paytaxtı olub.

44 günlük Vətən müharibəsindən də danışan T.Budaqov bildirib ki, Ermənistanın Gəncədə mülki sakinləri hədəf alan raket hücumları şəhər sakinlərini qorxutmadı, onlar böyük dəyanət və Vətənə sevgi nümunəsi göstərdilər.

2021-ci ilin Prezident İlham Əliyev tərəfindən “Nizami Gəncəvi İli” elan olunduğunu xatırladan T.Budaqov qeyd edib ki, Yeni Azərbaycan Partiyası tərəfindən bütün bölgələrdə Nizami irsinin öyrənilməsi, onun dünya mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələrlə bağlı “Xəmsə” festivalı keçirilib. Bu gün isə Gəncədə festivalın yekunu təşkil olunub.

Ağacəkmə kampaniyasından sonra festivalın bağlanış mərhələsi keçirilib.

Festivalın bağlanış mərasimi Vətən müharibəsi şəhidlərinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Tədbirdə YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Milli Məclisin deputatları Naqif Həmzəyev, Müşfiq Cəfərov, Pərvin Kərimzadə, YAP Gənclər Birliyinin üzvləri və şəhər icra hakimiyyətinin nümayəndələri iştirak ediblər.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov festivalda qalib gələn gəncləri təbrik edərək, Gəncə şəhərinin tariximizdə müstəsna yerə malik olduğunu bildirib.

“Nizami yaradıcılığı Azərbaycan klassik ədəbi-mədəni irsində xüsusi yerə malikdir. Ümummilli lider Heydər Əliyev Nizami irsinə hər zaman böyük diqqət və qayğı ilə yanaşıb. Hələ 1979-cu ildə Ulu Öndərin təşəbbüsü ilə Nizami Gəncəvi irsinin öyrənilməsi, onun əsərlərinin çap etdirilməsi və tədqiqi haqqında qərar imzalanmışdır. 1981-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə Nizami Gəncəvinin 840 illik yubileyi İttifaq səviyyəsində təntənəli şəkildə qeyd olunmuş, Nizami irsinin tədqiqi və əsərlərinin bütün dünyada təbliği, yenidən qiymətləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. Prezident İlham Əliyevin Sərəncamına əsasən 10 il bundan öncə Nizami Gəncəvinin 870 illiyi də ölkəmizdə təntənəli şəkildə qeyd olunub. Bu il isə Prezident İlham Əliyevin Sərəncamı ilə 2021-ci il ölkəmizdə “Nizami Gəncəvi İli” elan edilib. Bu festivalda iştirak edən hər bir gənc Azərbaycanın gələcəyi, Azərbaycanın bundan sonrakı inkişafı üçün öz bilik və bacarığını əsirgəməyəcək bir vətəndaşdır”, - deyə T.Budaqov qeyd edib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək deyib ki, Azərbaycanda “Nizami Gəncəvi İli” elan edilməsi ilə əlaqədar, həm ölkəmizdə, həm də ölkə hüdudlarından kənarda silsilə tədbirlər keçirilir. Bu çərçivədə Gəncə şəhəri də müxtəlif layihələrə ev sahibliyi edir. Sevindirici haldır ki, gənclər keçirilən tədbirlərə böyük maraq göstərirlər.

**Ardı Səh. 9**





# Gəncədə Ümumrespublika “Xəmsə” Festivalının bağlanış mərasimi keçirilib

Əvvəli Səh. 8

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qalib gəncləri və iştirakçıları təbrik edərək, gələcək həyatlarında uğurlar arzulayıb.

Partiyanın Gənclər Birliyinin sədri Bəxtiyar İslamov qeyd edib ki, layihənin məqsədi Azərbaycan gəncliyinin dünya görüşünə, fərdi inkişafına töhfə vermək, onlar arasında mövcud əlaqələri inkişaf etdirmək və milli-mənəvi dəyərlərimizə, tariximizə bağlı vətəndaş


















kimi formalaşmalarına dəstək olmaqdır.

Festivalda qalib gəlmiş komandaların üzvləri kubok, diplom və hədiyyələrlə təltif olunublar.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2021-ci il 5 yanvar tarixli Sərəncamına əsasən 2021-ci il ölkəmizdə “Nizami Gəncəvi İli” elan olunub. “Nizami Gəncəvi İli” çərçivəsində ölkəmizdə keçirilən tədbirlərdən biri də YAP Gənclər Birliyi tərəfindən təşkil edilən Ümumrespublika “Xəmsə” Festivalıdır. Layihə Azərbaycanda ilk dəfə açıq havada keçirilən intellektual festivaldır. Festivalda, ümumilikdə, 84 şəhər və rayondan 420 gənc iştirak edib. Komandaların tərkibi Yeni Azərbaycan Partiyasına üzv və bitərəf gənclərdən formalaşdırılıb.






# Milli Qəhrəman Yuriy Kovalyovun büstünün açılışı mərasimi olub









***Nizami rayonunda Yuriy Kovalyov adına 229 nömrəli tam orta məktəbdə Milli Qəhrəmanın büstünün açılışı mərasimi olub. SİA-nın məlumatına görə, mərasim iştirakçıları öncə 44 günlük Vətən müharibəsinə və Zəfər tariximizə həsr edilmiş rəsm sərgisi ilə tanış olublar. Sonra məktəbin məzunu olmuş 7 şəhidin əziz xatirəsinə hörmət əlaməti olaraq ağaclar əkiblər.***

Azərbaycan bayrağının gətirilməsi, dövlət himninin səsləndirilməsindən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin, müstəqil Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən Milli Qəhrəman Yuriy Kovalyovun qardaşı Vitaliy Kovalyov onlara göstərilən diqqət və qayğıya görə müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib.

Sonra büstün açılışı olub, Milli Qəhrəman Yuriy Kovalyov haqqında videoçarx nümayiş etdirilib.

Məlumat verilib ki, Yuriy Kovalyov 1965-ci il mayın 29-da anadan olub. 1981-ci ildə Bakının Nizami rayonundakı 229 nömrəli tam orta məktəbi bitirib. O, 1990-cı il sentyabr ayının 15-də Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə qəbul edilib, Azərbaycanın bir çox döyüş bölgələrində mərdliklə vuruşub. Kovalyov Goranboy rayonunun kəndlərinin azad edilməsində böyük şücaət göstərib. 1991-ci il oktyabrın 3-də Xocavənddə növbəti hərbi tapşırıqdan qayıdarkən düşmənlə döyüşdə qəhrəmancasına vuruşaraq şəhid olub. 1992-ci ildə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülən Yuriy Kovalyov Şəhidlər Xiyabanında dəfn edilib.

Mərasimdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib ki, Azərbaycan dövləti və cəmiyyəti həm birinci Qarabağ müharibəsinin, həm də Vətən müharibəsi qəhrəmanlarının, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna böyük ehtiram, onların ailələrinə və qazilərimizə yüksək diqqət, qayğı göstərir. Tahir Budaqov daha sonra bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası müstəsna əhəmiyyətə malik, dövlətçilik tariximizdə bənzəri olmayan Zəfər salnaməsi, Qələbə dastanıdır.

Mərasimdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Rus İcmasının rəhbəri, MM-in deputatı Mixail Zabelin, Bakı Şəhər Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, Milli Məclisin deputatları Sədaqət Vəliyeva, Rasim Musabəyov, Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini İldırım Mehdiyev, 229 nömrəli məktəbin direktoru Vüsalə Məmmədova və başqaları Milli Qəhrəman Yuriy Kovalyovun igidliyi, şücaəti, eləcə də 44 günlük Vətən müharibəsindəki zəfər, şəhid ailələrinə, qazilərə olan dövlət qayğısı barədə bəhs ediblər.

Mərasimə Milli Qəhrəmanın qızının və nəvəsinin ifasında bədii hissə ilə yekun vurulub.

# Müəllim ustad, öyrədən, həyata vəsiqə verəndir






**"Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına riayət edərək Azərbaycan təhsilinin ənənələrinə sadiq qalacağıma, keyfiyyətli təhsil xidməti göstərəcəyimə, peşəkar fəaliyyət zamanı qeyri-etik davranışın hər hansı bir formasına yol verməyəcəyimə, həmkarlarım, təhsilalanlar, valideynlər və digər şəxslərlə münasibətləri hörmət, şərəf və ləyaqət əsasında quracağıma, müəllim adını və şərəfini uca tutacağıma and içirəm." Bu, Azərbaycan müəlliminin təntənəli şəkildə Azərbaycan Respublikasının Dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla içdiyi anddır.**

O and ki, gələcək illərində onu hər an məsuliyyətli olmağa, istənilən bir hərəkətinə cabavdeh olmağa səsləyir. Azərbaycana layiqli, vətənpərvər, savadlı gənclərin yetişməsində müəllimin payı müstənsandır. Bu gün müəllim andı içən hər kəs müstəqil bir dövlətin tələblərinə cavab verən nəsil yetişdirir və onları cəmiyyətə layiqli vətəndaş kimi yetirir. Bu gün 44 günlük Vətən müharibəsində şəhid olan, qazi olan, ümumilikdə iştirakçı olan hər kəs on bir il parta arxasında müəllimlərdən dərs almış, Azərbaycan tarixini öyrənmişdilər. Hər il bir sinifdən o biri sinfə adlayan şagirdlər 20 Yanvar facəsini, Xocalı soyqırımını, Birinci Qarabağ savaşını dərindən öyrənərək nə vaxtsa torpaqlarımızın işğaldan azad olunmasında iştirakçı olacaqlarına əmin idilər. Əli silahlı səngərdə düşmənə dərs verəcəkdilər. Gün gəldi, zaman yetişdi Müəllimlərindən aldığı vətənpərvərlik dərsini döyüş meydanında göstərdilər. Bəli, bu gün biz belə müəllimlərimizlə fəxr edirik. Vətən eşqi ilə yanan və yaşayan. Bu eşqi yüzlərlə, minlərlə şagirdlərinə əxz edən müəllimlər. Adınız şərəflidir. Bu gün ilk dərs gününü "Qarabağ Azərbaycandır!" mövzusu ilə başlayan Azərbaycan müəllimi üçün bundan böyük qürurverici nə ola bilər?

## MƏKTƏBİ DÖYÜŞ MEYDANI İLƏ ƏVƏZLƏYİB ŞƏHADƏTƏ YÜKSƏLƏN MÜƏLLİMLƏRİMİZ

5 oktyabr dünya ictimaiyyətinin məhəbbətlə qarşıladığı və daim qəlbində gəzdirdiyi müəllimlərin peşə bayramı - Beynəlxalq Müəllimlər Günüdür. Belə bir gündə bu fikirlərlə başlamaq əlbəttə ki vacibdir. Bu il müəllimlərimiz ilk dəfə olaraq Qalib ölkənin müəllimi kimi müəllimlər günü qeyd edir. Xatırladaq ki, Vətən müharibəsi başlayanda Öncə Vətən, deyib cəbhəyə yola düşən müəllimlərimiz də az olmadı. Bu gün müəllimlər günündə onların adını vurğulamaq əlbəttə ki, borcumuzdur. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmanlıq göstərərək şəhid olan müəllimlərimiz Vüqar Vəliyev, Famil Əhmədzadə, Rəşad Məmmədov, Elvin İmaməliyev, Etiram Hüseynli, Qoşqar Ömərov, Vidadi İsrafilov, Elxan Rzayev, Xalid Nəciyev, Elgün Quliyev, Tural Rəhimov, Rəvan Lətifov, Əvdil Quliyev, Rabil İsmayılov, Emil Qurbanov və Kənan Müzəfferli. Bu adlar əbədi olaqar tariximizə yazılıb.

Vaxtilə parta arxasında dərs alan bu müəllimlər zaman yetişər ki, milli ruhlu, gələcəyin vətənpərvər ruhlu övladlarını yetişdirir və tale elə gətirir ki, cəbhədə döyüşçü kimi vuruşurlar. Bu gün həmin oğullardan biri haqqında söz açmağı özümüzə borc bilirik. Şuşadan keçən döyüş yolu Rəvan Lətifovun taleyinə yazılır. Adı şəhidlik zirvəsinə yüksələn vətən oğlu. Vətən müharibəsi başlayanda Sincan kənd tam orta məktəbində təşkilatçı-müavin vəzifəsində çalışıb. Sentyabrın 29-da Vətən müharibəsində iştirak etmək üçün çağırış vərəqəsi alıb və məktəbi döyüş meydanı ilə əvəzləyib. Döyüş meydanda da öz sözünü deyib. Onun döyüş yolu Şuşaya qədər gedib çıxıb. Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib və qəhrəmancasına şəhid olub. Şəhadət xəbərini ailəsi noyabrın 16-da alıb və o, Xaçmaz kəndindəki "Şəhidlər Xiyabanı"nda dəfn edilib.

Bəli, biz bu gün qürurla müəllimlərdən söz açırıq. O müəllimlərdə ki, həm müəllim kimi vətənə layiq övladlar yetişdirib, həm də zamanı yetişəndə silaha sarılıb. Vətəndaş müəllim! Qarşınızda baş əyirik!!!

## MÜƏLLİM QÜDRƏTİ, MÜƏLLİM ƏMƏYİ ƏVƏZSİZ VƏ SONSUZDUR

5 oktyabr tarixinin qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də YUNESKO tərəfindən verilib. Təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilib. İndi dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-də müəllimlər peşə bayramlarını qeyd edirlər. Bu bayramın beynəlxalq səviyyədə keçirilməsi, həqiqətən də, böyük sevginin bəşəri təcəssümünü özündə ehtiva edir. Ağıl və elm kimi dünyaya məxsus olan açarın milyonlarla insanlara əxzində, məhz müəllim qüdrəti, müəllim əməyi əvəzsiz və sonsuzdur. Odur ki, bəşəriyyət formalaşdığı bir zamandan müəllimə olan münasibət fərqli məcrada özünü göstərə bilmişdir. Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir. Bu cür məfhumları özündə cəmləşdirən peşə sahibinin peşə bayramının respublika səviyyəsində qeyd olunması ona olan qiymətin bir ölçüsüdür. Dünyanın bütün peşə sahiblərini həyata hazırlayan elə müəllimdir. Bu baxımdan, müəllimlik peşəsi heç bir peşə ilə müqayisəyə gəlməyən bir nümunədir. Dünyanın ən müdrik simaları, liderləri, böyük şəxsiyyətləri, beynəlxalq aləmin hegemon qüvvələri bu ad qarşısında adiləşir, öyrənməyə və nəyisə əxz etməyə çalışırlar. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən Ümummilli Lider Heydər Əliyev, Azərbaycana rəhbərlik etdiyi bütün illərdə, müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb.

## HƏR FƏRDİN CƏMİYYƏTDƏ FORMALAŞMASI MÜƏLLİM TƏXƏYYÜLÜ, ZƏHMƏTİ VƏ İLLƏRİ HESABINA BAŞA GƏLİR

Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır. Dünyanın dərk edilməsi elmdə olduğundan, müəllimə bütün zamanlarda ehtiyac duyulur. Həyatı, yazıb-yaratmağı öyrədən müəlliminə mənən borclu olduğunu dərk edərək, onun vücudu qarşısında səcdə edir. Bir müəllimin gücü bir ordu ilə müqayisə oluna bilər. Hər fərdin cəmiyyətdə formalaşması müəllim əməyi, təxəyyülü, zəhməti və illəri hesabına başa gəlir. Cəmiyyətə savadlı, elmi bilikli gənclər ordusunu yetişdirən müəllim onu şəxsiyyət və vətəndaş olaraq cəmiyyətə hazırlayır. Elm və savadla bahəm, bu dəyərlərin aşılanması əsas şərt olduğundan, hər bir müəllim ünsiyyətdə olduğu şagirdlərinə bu keyfiyyətləri aşılamaq üçün öz peşəkarlığını ortaya qoyur. Müəllim pedaqoq və psixoloqdur. Müəllim özünü tərbiyə edib, özündə kamil insani sifətləri aşılayıbsa, deməк, müəllim adı ona yaraşır. Özünə aşıladığı bu sifətləri mütləq cəmiyyətə də aşılayacaq. Belə bir cəmiyyətdə missiya daşıyıcısı olan müəllimə yetirilən diqqət də yetərincədir.

Bu gün sivil ölkələr sırasında Azərbaycanı nüfuzlu dövlət kimi görürüksə, deməк, dövlətin güclü silahı olan elmi inkişafdadır. Ölkə rəhbərliyi tərəfindən atılan addımlar bu sahənin daha da inkişafına yönəlmişdir. İyirmi birinci yüzillik elm və informasiya əsri olduğundan, sürətli inkişafda Azərbaycan da təhsilini dünya səviyyəsində qurur. Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb.

Dövlət başçısı İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Qəbul olunmuş dövlət proqramları, layihələr, aparılan islahatlar təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsində mühüm rol oynayır. Belə ki, məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının tikilib istifadəyə verilməsi regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarında öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı" bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini təmin edib. Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə və yüksək nəticələrin qazanılmasına xidmət edir.

## AZƏRBAYCANIN SƏFALI GUŞƏLƏRİNDƏ YENİ TİKİLƏCƏK MƏKTƏBLƏRDƏ MÜƏLLİMLƏR ŞƏRƏFLİ VƏZİFƏLƏRİNİ YERİNƏ YETİRƏCƏKLƏR

Azərbaycanda təhsilə verilən qiymət və diqqət, artıq təhsilin keyfiyyətcə yeniləşməsinə gətirib çıxarıb. Gələcəyin inkişafı onun təhsilindən başlayır. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Dünyada mövcud olan ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir. Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilməlidir. Müəllim hər bir yeniliyi izləyərək, onu tətbiq etməlidir. Müəllim savadı və dünyagörüşü ilə böyük bir nəsli tərbiyə edir. Bütün dünyada gedən prosesləri izləyir və ölkəmiz üçün vacib olan məsələləri şagirdlərə çatdırır. Bu günün məktəblisi, gələcəyin əsgəri və vətəndaşıdır. Bu prizmadan çıxış edərək, yüksək bilikli şagird yetişdirməklə, müəllim cəmiyyətə sağlam ruhlu vətəndaş hazırlamalıdır. Təməli məktəb partaları arxasında qoyulan şagirdlər, məhz bu gün müəllimin böyük zəhməti sayəsində inkişaf edir. Xalqımızın milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunur, böyük hörmətlə və yüksək ehtiramla çəkilir.

Bu gün müasir, müstəqil Azərbaycan yeni mərhələyə qədəm qoyub. Qarşıda Azərbaycanın böyük hədəfləri var. İşğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə başlanılıb. Hər kənd, qəsəbə. şəhər yenidən qurularaq öz sakinlərini qoynuna alacaq. Sözsüz ki, bu quruculuqda məktəb tikintisi də mühüm faktordur. Yeni tikiləcək məktəblərdə müəllimlər Azərbaycanın səfalı guşələrində şərəfli vəzifələrini yerinə yetirəcəklər.

Müəllimlər gününüz mübarək, əziz müəllimlər!

***Nəzakət ƏLƏDDİNQIZI***







# Fəth etdiyi zirvə ilə ölümsüzlüyə qovuşan Qoşqar Ömərov



Azərbaycanın bütövlüyü uğrunda, torpaqlarımızın qorunmasında canlarından keçmiş şəhidlərin ömür yolu tarixə qovuşub. Bir dastan olub şəhid ömrü. Neçə-neçə yüzilliklərə qovuşan dastan. Zaman gələcək şəhidlərimizin qəhrəmanlığı böyük əsərlərin, poemaların, sənədli və bədii filmlərin əsas ideyasını təşkil edəcəkdir. Hər zaman üçün örnək olacaq bir ömrün dastanından keçilən yollar, vətənpərvərlik əzmi, ən son nəfəsdə vətən keşiyində necə durmağın nümunəsidir. Belə qəhrəmanları tanımalı, onların keçdiyi şərəfli mücadilə dolu yollar öyrənilməlidir. Torpaqlarımızın işğaldan azad olunması, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçməyə hazır oldu Vətən Oğlu. Bu gün şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq hər birimizin borcudur. Ölkəmizin elə bir bölgəsi, elə bir kəndi yoxdur ki, orada şəhid məzarları olmasın. Düşməni susduran, ona döyüş meydanıda dərs verən, son damla qanlarına kimi vuruşan nə qədər mərd oğullar şəhadətə yüksəldi. Qorxu duymadan, ürəklərində böyük Vətən sevgisi vuruşdular. Bu gün şəhadətə qovuşmuş qəhrəmanımız Qoşqar Ömərov kimi. Atası Səxavət Ömərovla əlaqə saxlayaraq Müəllimlər Günündə şəhidlik zirvəsinə yüksələn bir vətən övladı ilə bağlı xatirələrə çökmüş ömür yolunu çözələdik. Axı Qoşqar da müəllim idi. Şagirdlərinin böyük sevgisini qısa bir zamanda qazanan müəllim. Şəhid atanın səsindəki məğrurluq insanda qürur yaradır. Vətən torpağına bir şəhid oğul vermiş ata övladı haqqında danışarkən məğrurluğunu büruzə verir. Gənc övladını torpağa tapşıran məğrur ata ”Vətən sağ olsun”, - deyir. Bu an göz önündə oğlunun nəşi üstünə sərilən bayrağımızdan qürurlanan, düşmənə kimliyini göstərən ərən övladın atası obrazı canlanır. Ömrünü öz oğlunun ömrünə calayan ata işğaldan azad olunan torpaqlarımızla təskinlik tapır və deyir ki, oğul vətən üçün doğulur. Bu gün Qoşqar bir ailənin deyil, bütün Azərbaycanın övladıdır. Böyük döyüş məharəti nümayiş etdirən Qoşqar 44 günlük Vətən müharibəsində yüksək vətənpərvərlik, cəsurluq, əqidə sərgilədi. Onun tərcümeyi-halına nəzər salaq. Qısa və şərəfli ömür yazan Qoşqar 1994-cü il fevralın 9-da Kürdəmir rayonu Şilyan (Qarasu) kəndində müəllim ailəsində anadan olub. Qoşqar 2011-ci ildə Qarasu kənd orta məktəbini yüksək qiymətlərlə bitirərək, Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat-informatika fakültəsinə daxil olub. Sən demə, atası Səxavət müəllim Qoşqarın müəllimi olub. Həm ona riyaziyyatı sevdirib, həm də müəllimliyi, həm də Vətəni. Deyir ki, V-XI siniflərdə riyaziyyatdan Qoşqara dərs demişəm:



”Sinfin ən fəal şagirdi idi. Mərd, sözünün üstündə duran, sözünü deməyi bacaran şagird olaraq diqqəti cəlb edirdi. Psixoloji cəhətdən də möhkəm idi. Hər bir hərəkəti ilə nümunə idi.”

2015-ci ildə Memarlıq və İnşaat Universitetinin İnformasiya texnologiyaları ixtisası üzrə magistraturaya daxil olsa da, hərbi xidmətə yola düşmüşdür. Hərbi xidmətini başa vurduqdan sonra 2016-2018-ci illərdə magistr təhsili almışdır. 2018-ci ildə MİQ imtahanında 57 bal toplayaraq Masazır kənd 5 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır. Nə biləydi ki, bu gün müəllim kimi sevdiyi bir peşəsi ilə tez bir zamanda vidalaşacaq. Onu daha təlatümlü, mücadiləli bir yol, ömür cığırı gözləyir.

Tovuz döyüşlərindən sonra qəlbi böyük arzularla döyünən Qoşqar vətənin müdafiəsi üçün hərbi komissarlığa müraciət edir. Ordu sıralarına könüllü qatılmaq məqsədi ilə. Müharibə başlayan kimi də çağırılır. Həqiqi hərbi xidmətdə hesablayıcı artilleriyaçı olub. Sentyabrın 27-də Füzuli cəbhəsindən müharibəyə qatılmış, ”Sən sağ ol, Vətən!” - deyərək, döyüşlərdə xüsusi fəallığı və igidliyi ilə seçilərək kəşfiyyat bölüyünə daxil edilir. Bir neçə yüksəkliklər uğrunda döyüşlərdə iştirak edən Qoşqar noyabrın 4-də Şuşanın Daşaltı kəndinin ətrafında gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlir. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz, deyir ata. Bizim xalqımızın böyüklüyü ondadır ki, biz vətən torpağı uğrunda şəhid olmağı bacarırıq. Azərbaycan torpağı tarixən böyük qəhrəmanlar yetişdirmişdir. Qoşqar Ömərov böyük bir ömür yolu keçdi. Hər kəsə nəsib olmayan, ucalığa yüksələn şəhid ömrü. Hər kəsin də yaddaşında qəhrəman vətən övladı olaraq qaldı. Onun dərs dediyi şagirdlər, ətrafında olanlar, dost-tanışı bu gün Qoşqarla fəxr edirlər. Axırıncı dəfə şəhadətindən 4-5 gün əvvəl ailəsi ilə danışıb. Böyük sevgi ilə danışıb. Ömrünü hərb sənətinə həsr etmiş artilleriyaçı kimi. Qələbə əzmi yüksək olan Qoşqar nə yazıq ki, Zəfərimizi görə bilmədi. Vətənini sevən, ən dar günündə onun çağırışına hay verən Vətən oğlu. Fəth etdiyi zirvə ilə ölümsüzlüyə qovuşan Qoşqar 26 illik ömür yolunda xalqın, elinobanın övladına çevrildi. Bu, valideyn üçün böyük fəxrdir.



Şəhid Qoşqar Ömərov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən ”Vətən Uğrunda” medalı ilə təltif edilib. (Ölümündən sonra). Daha sonra dövlət başçısının sərəncamları ilə Azərbaycan rayonlarının işğaldan azad edilməsi uğrunda aparılan döyüşəməliyyatlarına qatılaraq şəxsi igidliyi vəşücaəti nümayiş etdirdiyinə görə ”Xocavəndin azad olunmasına görə”, ”Füzulinin azad olunmasına görə” və ”Şuşanın azad olunmasına görə” medalları ilə ilə təltif edilib. Bu gün onun ruhu şaddır. Vətən torpağı işğalçılardan azad olub. Azərbaycanın üçrəngli bayrağı işğaldan azad olunan ərazilərimizdə dalğalanır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# YAP Quba rayon təşkilatı tərəfindən Əfsan Salıyevin xatirəsi anılıb

YAP Quba rayon təşkilatı tərəfindən "Şəhid ailələrinə qayğı" aksiyası çərçivəsində görüşlər davam etdirilir. Bu görüşlərin davamı olaraq, oktyabrın 4-də YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov və YAP fəalları Quba rayon II Nügədi kəndindən olan şəhid Salıyev Əfsan İlkin oğlunun məzarı ziyarət edib, üzərinə gül-çiçək dəstələri düzüb, ruhuna dualar oxunub. Sonra şəhidin ailəsi ziyarət edilib.Salıyev Əfsan İlkin oğlu Qubanın II Nügədi kəndində anadan olmuşdu. 2020-ci il oktyabrın 3-də Salıyev Əfsan İlkin oğlu Suqovuşan istiqamətində gedən döyüşlərdə qəlpə yarası alaraq Vətən torpağının azadlığı uğrunda qəhrəmancasına şəhid olmuşdur. Ölümü ilə ölməzlik qazanmış, şəhidlik zirvəsinə ucalmışdır.







Şəhidimiz Qubanın II Nügədi kənd qəbiristanlığında dəfn olunub. O, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti Cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov bildirib ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini həmişə uca tutur. Şəhidlərimiz Vətənimizin işğaldan azad olunmuş torpaqları uğrunda öz qanından, canından keçərək Şəhidlik zirvəsinə ucalıblar.

O, qeyd edib ki, şəhidlərimiz kimi, onların ailələri də bizim üçün çox qiymətli və dəyərlidirlər. Şəhidlərimizin, qazilərimizin keçdikləri şərəfli ömür yolu gələcək nəsillərə örnəkdir. Torpaqlarımızın azadlığı, Vətənimizin düşmən tapdağından xilas olması üçün canından keçən Azərbaycanın mərd oğulları - Şəhidlərimiz, Qazilərimiz bizim qürur mənbəyimizdir. YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov şəhid ailəsinin problemləri ilə maraqlanıb və səlahiyyətləri daxilində problemlərin həlli üçün köməklik göstərəcəklərini bildirib. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

*NƏZAKƏT ƏLƏDDİNQIZI*

# Qusar rayonunda Vətən müharibəsi şəhidlərinin ildönümü mərasimləri keçirilib

**44 günlük Vətən müharibəsi şəhidləri - Azərbaycan Silahlı Qüvvələrinin mayoru Zamanov Sənan Qahir oğlunun, əsgərlər Kürəbəyov Mayıl Kamran oğlunun və Balabəyov Ramil Ruslan oğlunun ildönümü mərasimləri keçirilib.**

Mərasimdə Qusar rayon icra hakimiyyətinin başçısı Şair Alxasov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov, YAP Qusar rayon təşkilatının rəhbərliyi, şəhid ailələri və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Anım tədbirinin iştirakçıları əvvəlcə Qusar şəhər Şəhidlər Xiyabanında şəhidlərin məzarlarını ziyarət etmiş, onların ruhlarına dualar oxuyaraq, xatirələri ehtiramla yad olunmuş və məzarlarına gül-çiçək dəstələri düzülmüşdür. Mərasim iştirakçıları şəhidlərin ailələrində olmuş, qayğıları ilə maraqlanmışlar. Onları narahat edən məsələlərin tezliklə həll ediləcəyi bildirilib. Şəhid ailələrinin üzvləri onlara göstərilən dövlət qayğısına görə, Prezident, Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.





*NƏZAKƏT ƏLƏDDİNQIZI*



# Oğuz şəhidlərinin xatirəsi anılıb

YAP Oğuz rayon təşkilatı tərəfindən oktyabrın 4-də eyni gündə şəhid olmuş Elman Babayev, Vüsal İsmayılov, Abid Məmmədov, Saməddin Əmrahovun ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilmiş, ruhlarına dualar oxunmuş, valideynlərinə başsağlığı verilmişdir.

Allah Vətən yolunda canını fəda edən bütün Şəhidlərimizə rəhmət eləsin.

*ZÜMRÜD BAYRAMOVA*

# Ağdaş rayonunda şəhidin ildönümü qeyd olunub

**3 oktyabr 2021-ci il tarixində Azərbaycanın 44 günlük Vətən müharibəsində Ağdaş rayonunun şəhidi Namətov Naib Firqət oğlunun ildönümü qeyd olunub. Bununla əlaqədar rayonun Kotanarx kəndində keçirilən mərasimdə YAP Ağdaş rayon təşkilatının fəalları, icra hakimiyyətinin və rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları iştirak etmişlər. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidimizin əziz xatirəsi ehtiramla anılmış, ruhuna dualar oxunmuş, döyüş yolu barədə söhbət açılmış, valideynlərinə başsağlığı verilmişdir.**




Qeyd edək ki, Namətov Naib Firqət oğlu 11 fevral 1998-ci ildə Ağdaş rayonunun Kotanarx kəndində anadan olmuşdur. Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu olan Naib 2020-ci ilin iyul ayında həqiqi hərbi xidmətə çağrılmışdır. Azərbaycan Ordusunun əsgəri olan Naib Namətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 3-də Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Ağdaş rayonunun Qarağan Sədi kəndində dəfn olunub. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Gün ərzində partiya fəalları şəhidin ailəsini davamlı olaraq ziyarət ediblər.



*ZÜMRÜD BAYRAMOVA*

# Ayətullah Xomeyninin amerikalılarla gizli sövdələşmələri üzə çıxıb

## *Riçard Folk:*
## "Biz bilmirik ki, o nəyə görə öz planlarını dəyişdi"

**1979-cu ilin 1 fevral tarixində Tehran hava limanına Parisdən çarter reysi ilə qalxan təyyarə endi. Təyyarənin içində ciddi görkəmli və gülümsəməyən bir qocanı 120 jurnalist müşahidə edirdi. Onun adı Ruhulla Xomeyni idi. O öz evinə 15 illik sürgündən geri dönürdü. Belə ki, Xomeyni tanınmış ilahiyyatçı kimi 1964-cü ildə o zamankı hakimiyyəti ən sərt tənqidlərə məruz qoyduğuna, qiyam çağırışlarına görə sürgünə uğramışdı.**

1 fevral tarixindən bir neçə gün sonra isə o vaxtkı hökumət süquta uğrayacaq, Xomeyni isə İranı - şəriət qanunları ilə idarə ediləcək İslam respublikasına çevirəcək, qanunların da hakimi özü olacaqdı. Bu dəfə narazıların yanında olan ayətullah statusunda...





Məhz hakimiyyətə gələr-gəlməz yeni yaradılmış İran İslam Respublikasının (İİR) rəhbəri ABŞ-ı ölkənin əsas düşməni, eləcə də "böyük şeytan" adlandırır. Halbuki, Xomeyni həmin vaxtlarda onun özü və ətrafı zamanında "əsas düşmən" adlandırdığı dairələrlə rabitədə olub, əlbəttə ki, özlərinə sərf edəndə...





Xomeyni Fransada gizlənərkən onun mesajları Ağ evə göndərilirdi

SİA xəbər verir ki, həmin olaylarla bağlı Rusiyanın NTV kanalının araşdırmaçı jurnalisti İvan Truşkin bəzi detalları aşkar edərək analitik material hazırlayıb. Həmin materialda isə bir çox maraqlı məqamlar diqqəti cəlb etməklə yanaşı, həm də düşünməyə vadar edir.



TO THE TUDEH. WE DO NOT SAY THAT THE CONSTITUTION CANNOT BE CHANGED, BUT WE DO BELIEVE THAT THE ESTABLISHED, ORDERLY PROCEDURES FOR MAKING CHANGES SHOULD BE FOLLOWED. IF THE INTEGRITY OF THE ARMY CAN BE PRESERVED, WE BELIEVE THERE IS EVERY PROSPECT THE LEADERSHIP WILL SUPPORT WHATEVER POLITICAL FORM IS SELECTED FOR IRAN IN THE FUTURE.

Beləliklə, amerikalılarının açılan gizli arxivlərində saxlanılmış sənədlər BBC-nin əlinə keçib və həmin sənədlər sübut edir ki, Xomeyni Fransada gizlənərkən onun mesajları Ağ evə göndərilirdi.

Paris yaxınlığında Nofel-le-Şato. Bizim zamanımızda sakit bir şəhərcik. Ötən əsrin 70-ci illərinin sonlarında burada Xomeyniyə məxsus iki ev olub - birində dəftərxana və inqilab qərargahı yerləşib, digərində isə Xomeyninin özü yaşayıb, qonaqlarını qəbul edib. Tehrana geri dönməsinə bir neçə gün qalmış isə ayətullah Riçard Folkla görüşüb-Prinstonun professoru indiyə qədər həmin görüşü bütün detalları ilə xatırlayır.

ABŞ prezidenti Karter administrasiyası tərəfindən göndərilən məktub şahidlik edir - ayətullahın yaxın çevrəsi amerikalıları belə bir modelə razı olmağa inandırdı və icazə aldı

Xomeyni ilə görüşündən sonra Folk heyrətdə qalmışdı, yəni onu qəddar fanatik adlandırmağın tərəfdarı deyildi. Onun sözlərinə görə, o öz ölkəsinin çiçəklənməsi üçün düşünən tərəqqipərvər düşüncəli şəxsdir, eyni zamanda, hakimiyyətə də iddialı deyil və s.

Riçard Folk Xomeyni haqqında əvvəlcə düşündüklərinin nəyə görə dəyişdiyini belə izah edib: "Xomeyni dedi ki, siyasətdən çəkilməyi planlayıb və dini həyata geri dönməyi düşünür. O, Tehranda qalmağı düşünmürdü və özünü siyasi lider kimi görmürdü, ruhani kimi görürdü. Biz bilmirik ki, o nəyə görə öz planlarını dəyişdi".

Xomeyni hər halda hiyləgərlik edirdi. Onun "İslam dövləti" (hazırkı terrorçu İŞİD-lə heç bir əlaqəsi yoxdur-R.R.) adlı proqram kitabı birbaşa deyirdi - İrandakı hakimiyyət bilavasitə ruhanilərin əlinə keçməlidir. Təxminən həmin vaxt ABŞ prezidenti Karter administrasiyası tərəfindən göndərilən məktub isə şahidlik edir - ayətullahın yaxın çevrəsi amerikalıları belə bir modelə razı olmağa inandırdı və icazə aldı.

Abbas Milani, Srenford universitetinin professoru: "Amerikalılar biləndə ki, şah hakimiyyətdə qala bilməyəcək, onlar alternativ axtarmağa başladılar və tapdılar - bu, ayətullah Xomeyni idi"

Həmin zaman İranı şah Pəhləvi idarə edirdi. İstənilən Qərb standartlarına qarşı isə etirazlar yüksəlir, onlara qarşı repressiyalar tətbiq olunurdu.

Abbas Milani, Srenford universitetinin professoru: "Sənədlər göstərir: amerikalılar biləndə ki, şah hakimiyyətdə qala bilməyəcək, onlar alternativ axtarmağa başladılar və tapdılar - bu ayətullah Xomeyni idi. Məhz həmin vaxt onlar İran hərbçilərinə qarşı güclü təzyiqlər etməyə başladılar ki, Xomeyni ilə xoşməramlı razılaşmalar əldə etsinlər".

Beləliklə, özünü ən güclü müttəfiqini itirəndən sonra Pəhləvi şəxsi təyyarəsinin sükanı arxasında oturaraq İranı tərk edir. Hakimiyyətdə yeganə yüksək çinli şəxs olan baş nazir əvvəlcə hava limanlarının bloka salınmaları və Xomeyninin geri dönməsinin qarşısının alınması üçün əmr verir. Bunun cavabında küçələrə yüzminlərlə insan kütləsi axın edir. Hakimiyyət hava məkanını açmaq məcburiyyətində qalır.

ABŞ qərbə loyal olan komandirlərə toxunulmayacağına inanıb ayətullahın geri dönməsinə razılıq verərkən, ayətullah hamını öz oyununa gətirir

Xomeyninin geri dönməsinə icazə vermək məcburiyyətinə qalan hökumət onda inanırdı ki, ayətullahı ölkənin ruhanilər mərkəzi olan Qum şəhərinə göndərə biləcək və o da həmin şəhərdə oturarkən heç bir təhlükə yarada bilməyəcək. Lakin bu da bir illüziya idi: Xomeyni təyyarədən enər-enməz 20 dəqiqəlik nitq söyləyir və baş naziri həbs edilməklə hədələyir.

Hakimiyyəti ələ almaq imkanında olan ordu isə sakit dayanır. İran komandanlığı ilə işi amerikalı general Hayzer aparıb və izah edib ki, Vaşinqton dövlət çevrilişini dəstəkləmir. Xomeyni isə kiçik rütbəli zabitlər tərəfinən dəstək gördükdən sonra şaha yaxın generalları amansızcasına təmizləməyə başlayır.

Karter aldadılır - ABŞ qərbə loyal olan komandirlərə toxunulmayacağına inanıb ayətullahın geri dönməsinə razılıq verərkən, ayətullah hamını öz oyununa gətirir.

Xomeyninin Vaşinqtonla rabitəsini sübut edən sensasiyalı sənədlər ictimailəşəndən sonra Tehranda hiddət ab-havası yaranıb: guya sənədlər saxtalaşdırılıb. Lakin ruhani liderin şəxsi məqsədləri üçün "böyük şeytanla" anlaşmalarının üzə çıxması faktı istər birbaşa, istərsə də dolayısı ilə artıq bir çoxlarını düşündürməyə başladıb...

**_Rövşən RƏSULOV_**

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Daşnakların var olması üçün iki rükət dilək namazı da qılsınlar...

**Görünən budur ki, deyəsən, Nikolun pipiyi yenidən qızarmağa başlayıb. Onun Litvaya səfəri zamanı bu ölkədə yaşayan erməni icması ilə görüşündə İranın Azərbaycanla həmsərhəd ərazilərdə hərbi təlimlər keçirməsini xüsusi təntənə ilə şərh etməsi, eləcə də Tehrandakı bəzi rəsmilərin guya regionda sərhədlərin dəyişdirilməsinə "izn verməyəcəkləri" ətrafındakı bəyanatlarından vəcdə gəlməsini nümayiş etdirməsi, Azərbaycan torpaqlarını 30 il işğala məruz qoyduqları dövr ərzində regional iqtisadi layihələrdən kənarda qalmasına rəğmən, İranın Ermənistana nəfəs borusu yolunu oynaması, əsasən də, baş verən bu kimi prosesləri İranın Ermənistana qardaşlıq dəstəyi kimi qiymətləndirməsi aşkar riyakarlıqdan başqa bir şey deyildir.**

Bu gün quyruğunun qapı arasında qalıb-sıxıldığını, hətta qopmaq üzrə olduğunu görən Nikol hər halda özü-öz siyasi ölümünü daha da sürətləndirməkdədir. Bir neçə gün əvvəl Azərbaycanla danışıqlara və pozitiv nəticələrə ümid etdiyini deyən erməni baş nazirinin İranın hərbi təlimlərə başlayan kimi küçə qadını tipli həyasızlığa əl atmasına isə həm mənəvi, həm də siyasi fahişəlik demək çox doğru olardı. Ümumiyyətlə, fakt budur ki, Nikol bu kimi davranışları ilə daim başqa ölkələrin çəkmələri altında öz varlığını qoruduğunu kifayət qədər sübuta yetirir. Halbuki tarix daşnakçılıq xislətinin dəfələrlə ermənilərə əl uzadanlara qarşı nə qədər ağır xəyanətlər törətdiyini də isbatlayıb.

Hətta bu gün Ermənistanda hakimiyyətdə olan və daşnak ideologiyasına mənsub olmadığını iddia edən siyasi isteblişmentin, yəni "Vətəndaş sazişi" partiyasının təməlində də daşnakçılıq ideologiyasının, prinsiplərinin varlığını müəyyən etmək heç də çətin deyil. Qısası, fərz etsək ki, əgər bu gün regiondakı siyasi üstünlük Ermənistan tərəfinə keçərsə (buna ümid etməsinlər), biz həmin daşnak xislətinin birdən-birə necə sürətlə baş qaldıracağını rahatlıqla seyr edə bilərik. Hər halda, elə də uzağa getməyərək, Paşinyan iqtidarının 44 günlük müharibədən əvvəlki davranışlarını yada salaq...

Ancaq gəlin görək, bu gün Ermənistanın ədalətsiz maraqlarına doğru istiqamət almış sərsəm bəyanatlarını səsləndirən bəzi İran rəsmiləri elə də uzaq olmayan, faktlara əsaslanan erməni daşnakçılığının bir gün onlara da necə ağır zərbə vura biləcəyinin fərqinə vara bilirlərmi?

Tarix göstərib ki, erməni-daşnak xisləti heç vaxt minnətdarlıq etməyi özünə rəva görməyib. Elə tarixə də müraciət edək və nəticələrə gələk:

* Osmanlı imperiyası erməniləri Bizans hücumlarından xilas edərək, onlara qucaq açdı və üstəlik, başqa heç bir millətə verilməyən ayrıca status müəyyən etdi. Bütün bunlara görə daşnakların Osmanlıya, sonradan isə Türkiyə cümhuriyyətinə qarşı necə "minnətdarlıq" göstərdiklərini kimsə unutmayıb!

* Azərbaycan öz tarixi torpaqlarına (İrəvana və s.) köçürülən ermənilərin yerləşdirilməsinə şərait yaratdı və onların yer-yurd olmaları üçün əlindən gələn yaxşılıqları etdi, çörək verdi, ev-eşik etdi. Bəs ermənilər bütün bunlara görə hansı "minnətdarlıqlarını" ərz etdilər? Bunu da şərh etməyə ehtiyac yoxdur, hər şey son 100-150 ildə ortadadır.

Təbii ki, Rusiya imperiyası da bu məsələdə qarşıdakı illərə hesablanmış qara xisləti planlarını ermənilərin əli ilə qurdu. Sonradan nə baş verdi?

Bəli, məhz Nikolun hakimiyyətə gəlişinin ardınca onun iqtidarı Rusiyanı ölkə ərazisindən qovmağa çalışdı, üstəlik, NATO bazalarının Ermənistanda yerləşdirilməsi planının olduğunu bəyan etdi. Putinə "S" komandası verən şüarlar səsləndirildi və s. Ruslar isə bu xəyanəti bağışlamadı, niyəsi və necəsi isə məlumdur...

* Hə, sonda daha bir xatırlatmanı da edək. 1989-ci ilin dekabrında baş vermiş Spitak zəlzələsindən sonra Azərbaycan Ermənistanın aqresiyasına baxmayaraq bu ölkəyə humanitar yardım təyyarəsi göndərdi. Ermənilər isə yanlış koordinat verməklə təyyarəmizin dağa çırpılaraq məhv olması kimi kirli, fahişəlik planlarını reallaşdırdılar.

Söz yox ki, bütün bunları isə elə-belə xatırlamıram. Sözlərimin əmması var! Əslində, bizə "müsəlman qardaş", "dost ölkə" deyə müraciət edən, arxadan isə erməni ilə dodaq-dodağa öpüşən Tehran başbilənlərinə eyham vururam ki, baxın ha, sabah-birigün ermənilərin daşnakçılıq xisləti sizə də buynuz atarsa, sizlər isə bundan ağır zərərlər görərsinizsə bizə demədi-deməyin. Bu baxımdan, sadəcə, xatırlatma edirik: nankor və yaxşılıq qanmayan vəhşi düşüncəli məxluqatın vura biləcəyi ziyanlar isə çox ağır olur.

*P.S. Bugünlərdə bir erməni "tarixçisinin" videosunu izlədim. O, İranla bağlı fikirlərini şərh edərkən dedi ki, əslində, iranlılar ermənilərin nə qədər "qədim xalq" olduqlarını dərk etməli, hətta ermənilərin bu torpaqların "əsl sahibləri" olduqlarını bilməli, məhz ermənilərin onların "sahibləri" olduqlarını anlamalıdırlar. Məncə, bu, hələ başlanğıcdır.*

*P.S.S.Hələlik isə Nikolun Litvada pipiyinin qızarması, İranın Ermənistana etdiyi "yaxşılıqları" barədə dilə-boğaza qoymadan bəh-bəhlə izhar etməsindən feyziyab olsunlar. Hələ vaxtları varsa, qanlı səlibçi-terrorçu daşnakların var olması üçün (nəuzubillah!) iki rükət də dilək namazı qılsınlar.*

# Ətimizin yiyəsi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

ESSE

Dünyada peşələr çoxdur. Deyilənə görə, 20 mindən artıq peşə və sənət növü var. Lakin bütün bu peşələrin sahiblərini bir peşə sahibi yetişdirir. Bu, MÜƏLLİMdir! Əslində, yazı qaydalarını pozmaq bahasına olsa belə, bu sözü böyük hərflə yazmaq lazımdır.





Harada, nə üzrə və hansı qaydada tədris verməsindən asılı olmayaraq MÜƏLLİM özündən daha yüksək biliyə mailk olan, cəmiyyətə töhfələr bəxş edəcək ağıllı, mədəni və ziyalı insanlar yetişdirmək istəyi ilə çalışır. Məhz buna görə MÜƏLLİM adı şərəfli sayılır və uca tutulur.

Bəşəriyyət tarixi elmi-texniki tərəqqiyə, mədəni-ictimai inkişafa görə ustadlara, müəllimlərə borcludur. Qədim mənbələrdə ilk biliyin insanlara İlahidən verildiyini və bunu hamıya çatdırmaq üçün ən təmiz qəlbli insanların seçildiyi qeyd olunur. İnsanın ilk müəllimləri də Tanrının seçdiyi uca insanlar- İlahi bilik sahibləri olub.

Tarixin sonrakı dövrlərində biliklər ustad-şagird ardıcıllığı ilə nəsildən-nəsilə ötürülüb və bu günümüzədək gəlib çıxıb. Hansı xalqın müəllimləri aydın fikirli, elmli, dünyagörüşlü olubsa, o xalq daha çox inkişaf edib.

Ta qədimdən Azərbaycan xalqı ustada- müəllimə böyük hörmət bəsləyib, onları valideyn qədər əziz tutub. El arasında müəllimin ən böyük hörmət və izzət sahibi olduğunu göstərən yüzlərlə atalar sözü, deyimlər, aforizmlər, rəvayətlər və s. şifahi və yazılı folklor nümunələri var.

Azərbaycanda həmişə ən hörmətli şəxs sayılan müəllimin sözü ağsaqqal sözü kimi qəbul olunub. Hətta, ən qüdrətli hökmdarlar belə müəllimlərinin qarşısında baş əyiblər, onları özlərindən yuxarı başda əyləşdiriblər. Qədimlərdə valideyn uşağını müəllimə verəndə "əti sənin, sümüyü mənim" deyə tapşırardı.

Böyük tarixi şəxsiyyətlərimizin və sənətkarlarımızın öz ustadlarına nə qədər böyük sevgiylə yanaşdığını və onların yolunu necə böyük əzmlə davam etdirdiyini xatırlamaq burada yerinə düşərdi.

Özləri ən böyük MÜƏLLİM olan böyük övliyalar, peyğəmbərlər, alimlər həmişə bütün uğurlarını müəllimlərinə borclu olduqlarını qeyd ediblər. Zərdüşt peyğəmbər, Məhəmməd peyğəmbər, Dədə Qorqud, Nizami, Xətai, Nəsimi kimi böyük dini-elmi-fəlsəfi bilik sahiblərinin tarixdə yaşayan kəlamları MÜƏLLİM şəxsiyyətinin peyğəmbərlik səviyyəsinə qədər ucaldığını göstərir.

Teymurləngin məzarı önündə bunu daha aydın təsəvvür etmək olur. Qüdrətli sərkərdə öz qəbrinin müəlliminin məzarının ayaq ucunda qoyulmasını vəsiyyət etmişdi və onun bu müdrükliyi hələ də dünyanı heyran qoymaqdadır.




Müasir Azərbaycan tarixində müəllimə yanaşmanın səviyyəsini ümummilli lider Heydər Əliyev qısa və konkret olaraq belə ifadə edib: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram". Müəllim ikinci valideyndir- o təkcə təhsil, elm vermir, təlim, tərbiyə də verir. Bu hesabla bizlər həm valideynlərimizin, həm də müəllimlərimizin əsəriyik.

Hər xalqın tarixinin müəyyən dövrlərində müəllimə daha böyük ehtiyac duyulub. Azərbaycan xalqı da 19-cu əsrin sonlarında və 20-ci əsrin əvvəllərində müəllimlərə çox böyük ehtiyac duyurdu. Böyük mütəfəkkirlər Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Mirzə Fətəli Axundov, Əbdürrəhim Haqverdiyev və digərləri xalqın cəhalətdən qurtulması, mövhumata yox, elmə doğru getməsi üçün mübarizə aparırdılar.

Tarixi həqiqətdir ki, xalqımız məhz belə aparıcı ziyalıların, mütəfəkkirlərin çağırdığı yolla gedəndən sonra inkişaf etdi və qısa zamanda dünya xalqları arasında öz layiqli yerini tutdu.

Hələ Çar Rusiyası dövründə aparılan sosioloji tədqiqatlar nəticəsində belə qənaətə gəlinmişdi ki, bu templə təhsillənmə gedərsə, Qafqaz xalqlarına savadsızlığın daşını atması üçün 940 il vaxt lazım gələcəkdir. Amma 20-40-cı illərdə- cəmi 20 ildə təhsil sahəsində elə bir inqilab oldu ki, əhalinin 90 faizi təhsilə yiyələndi. Artıq ötən əsrin ortalarında Azərbaycan əhalinin təhsilə cəlb olunma səviyyəsinə, əhalinin hər on min nəfərinə düşən elmi işçi, tələbə və müəllim sayına görə ən inkişaf etmiş ölkələri belə qabaqlayaraq dünyada ilk yerlərdən birini tuturdu.

Keçən əsrin ortalarında respublikada elm-təhsil ocaqlarının, kitabxanaların tikintisi işi böyük vüsət aldı, azərbaycanlı tələbələrin SSRİ-nin və dünyanın inkişaf etmiş digər ölkələrinin nüfuzlu ali təhsil ocaqlarında təhsil alması işi genişləndi.

20-ci illərədək bir nəfər də olsun akademiki, professoru, elmlər doktoru olmayan, əhalisinin 99%-nin oxuyub-yazma bilmədiyi, cəmi 100 nəfər azərbaycanlı müəllimi olan, 800 min uşağının məktəbin nə olduğunu bilmədiyi respublika 30 il sonra əhalisi 100% savadlanmış, minlərlə məktəbi, onlarla universiteti, elmlər akademiyası, elmi-tədqiqat institutları, hətta kosmik tədqiqatlar mərkəzi olan intellektuallar ölkəsinə çevrildi.

Hələ də Azərbaycan xalqı savadlı insanların, ali təhsillilərin say nisbətinə görə, dünya xalqları arasında ön sıralarda dayanır. Son dövrlərdə yeni təhsil sistemlərinin tətbiqi təhsildə müəyyən problemlər yaratsa da, yenə də xalqımız savadlılıq dərəcəsinə görə dünya xalqlarının ön sıralarında dayanır. Azərbaycanlı tələbələr onlarla xarici ölkədə təhsil alıb müasir elmlərə və texnoloji biliklərə yiyələnirlər. Ölkəmizdə ali məktəblərin və onlarda təhsil alan tələbələrin sayı xeyli artıb. Orta təhsil tam pulsuzdur və dərslikləri də dövlət pulsuz təmin edir.

Ümumiyyətlə, Azərbaycan xalqı tarixin bütün dövrlərində maarifpərvər və ziyalı bir xalq olduğunu sübut edib. Burada ən böyük rolu müəllimlər oynayıblar. O müəllimlər ki, onlar elm və təhsil yolunda, xalqın gələcəyi uğrunda sözün həqiqi mənasında şam kimi yanıblar. Xalqımız da onların hörmətini saxlayıb, adını həmişə uca tutub. Bütün bunlar xalqımızın elmə, təhsilə nə qədər böyük önəm verdiyinin göstəricisidir.

MÜƏLLİM ucalığı haqda saysız poeziya və nəsr nümunələri, bədii və elmi əsərlər yazılıb. "Bizim Cəbiş müəllim" filmindəki MÜƏLLİM obrazı isə Azərbaycan müəllimi üçün etalondur. Bu obraz həm də bütün cəmiyyət üçün bir insanlıq nümunəsidir- əsl İNSAN və əsl MÜƏLLİM nümunəsi...

Müəllim haqda çəkilən şedevr filmlərimizdən biri də "Bizi bağışlayın" filmidir. Məktəbi bitirəndən sonra müstəqil həyata ağır və qaranlıq 90-ların lap əvvəlində atıldıq, həyatın burulğanları başımızı elə qarışdırdı ki, bu filmdəki kimi, müəllimlərimizi unutduq, bir çoxu dünyasını dəyişəndə belə xəbərimiz olmazdı... İndi buradan müəllimlərimizə bütün şagirdləri adından demək istəyirəm- bizi bağışlayın...

Mən də MÜƏLLİM oğluyam və bir fədakar müəllimin təkcə məktəbdəki fəaliyyətini deyil, həm də bütün həyatını evdə görmüşəm. Tovuz şəhəri 1 nömrəli orta məktəbində bizə dərs demiş bütün müəllimlərimizi hörmətlə anıram- atam Bayram müəllim, Əzət müəllimə, Kamal müəllim, Raya müəllimə, Mütəllim müəllim, Adilə müəllimə, Abdulla müəllim, Hüseyn müəllim, Ofeliya müəllimə, Müzəffər müəllim, Qədim müəllim, İsmayıl müəllim, Dilqəm müəllim, Qızxanım müəllimə, Qoca müəllim, Tənzilə müəllimə, Mərhəmət müəllimə, Süreyya müəllimə, Qəməd müəllim, Solmaz müəllimə, Arzu müəllimə və digərləri... Onların çoxu haqq dünyasına qovuşub, amma bizim xatirimizdə əbədi yaşayacaqlar.

Sağ qalanların bəziləri ilə hərdən görüşürük. Bizi heç vaxt unutmayıblarmış... həmin illərdə məktəbdə olanları, bizim necə oxuduğumuzu ən xırda detallaradək xatırlayırlar.

Bu yay Tovuza gedəndə məktəbimizə baş çəkmək istədim və gördüm ki... məktəbimizi söküb yerində... yeni məktəb tikiblər- daha müasir, daha böyük. Xəbərimiz belə olmayıb, köhnə məktəbimizlə gedib vidalaşa da bilmədik. İndi yenilənmiş məktəbimizə Tovuzun tanınmış ziyalılarından biri, uzun müddət rayon Təhsil Şöbəsinin müdiri işləmiş Şamil Alıyev direktorluq edir. Köhnə müəllimlərimizdən demək olar ki, heç kim qalmayıb. Çoxu dünyasını dəyişib, qalanları da pensiyaya çıxıb.

Belə bir gündə sinif yoldaşlarını da unutmaq olmaz- 11 il ailə üzvlərindən daha çox bir yerdə olduğumuz Fəridə Abdullayeva, Amaliya İsmayılova, Sevil Zeynalova, Sevinc Sadıqova, Elxan İsmayılov, Sevinc Hüseynova, Ülviyyə Hüseynova, Mehriban Abbasova, Hicran Yusifova, Səadət Yusifova, Kəmalə Məhərrəmova, Heydər Əliyev, Şahnaz Mustafayeva, Arzu İsmayılov, Məhbubə Ələsova, İlham Rüstəmov, Zaur Qocayev, Kəmalə Həsənova, Natiq Verdiyev, Vüsal Qasımov, Etibar Hüseynov... onları o illərdə gördüyüm formalarında, gənc surətdə xatırlayıram, hərçənd bəziləri artıq nənə, babadır.

30 il keçib, çoxu ilə əlaqəmiz yoxdur, hərə bir ölkədə, bir şəhərdə məskən salıb. Həyat sinfimizin uşaqlarını öz şəhərimizdən, bəzilərini öz ölkəmizdən pərən-pərən saldı. Bu 30 ildə bir dəfə belə yığışıb görüşə bilməmişik. Gələn 25 mayda sinfimizi məktəbə toplamağa daha bir cəhd göstərəcəm. Ümidvaram bu dəfə alınacaq. Müəllimlərimizin məzarını ziyarət edib onları yad edəcəyik.

5 oktyabr Müəllimlər Günü münasibətilə bütün müəllimləri təbrik edirəm. Nə yaxşı ki, varsınız. Bayramınız mübarək!

***Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
5 oktyabr
2021-ci il



## Mourinyo “Roma"da rekord qırır...

“Roma”nın baş məşqçisi Joze Mourinyo İtaliya A Seriyasında yeni rekorda imza atıb. Qol.az xəbər verir ki, bu barədə ”Opta” məlumat yayıb. 58 yaşlı mütəxəssis buna 7-ci turda evdə ”Empoli” ilə matçda nail olub. Onun komandası 2:0 hesabı ilə qalib gəlib. Nəticədə Mourinyo A Seriyasında ardıcıl 42-ci ev oyununda uduzmayıb. Bu, 1994/1995 mövsümündən sonra mütləq rekorddur.

Qeyd edək ki, Joze Mourinyo 2008 - 2010-cu illərdə ”İnter”i çalışdırıb. O, bu yaydan etibarən ”Roma”ya baş məşqçilik edir.

## Mahir Emreli: “Tək düşüncəm çempionluqdur”



Futbol üzrə millimizin ”Legiya”da çıxış edən üzvü Mahir Emreli Polşa çempionatının 10-cu turunda ”Lexiya”ya uduzduqları matçdan (1:3) sonra komandasının çıxışı haqqında danışıb. O qeyd edib ki, Polşa çempionatda mübarizə aparmaq çətindir: “Burada hər şey var. Mübarizə aparmadan nəsə etmək çətindir. Bütün komandalar yaxşı müdafiə olunur, yaxşı da hücuma çıxırlar. Qələbə qazanmaq çox çətindir. Bu günkü məğlubiyyətin səbəbini isə bilmirəm. Həqiqətən, çətindir. Məyus və qəzəbliyəm. Oturub oyunu təhlil etməli, səhvlərimizə baxmalı və çalışmalıyıq. Başqa nə deyə bilərəm ki? Polşa çempionatını qazanmaq çox çətin olacaq. Dediyim kimi, liqanın səviyyəsi yüksəkdir və hər oyun təzyiqlə keçir. Hər şeydən əvvəl onu demək istəyirəm ki, fərdi mükafatlar haqda düşünmürəm. Tək düşüncəm çempionluqdur. Bombardir olsam, xoşbəxt olaram. Amma çempion ola bilməyəcəyiksə, bombardirliyin elə də əhəmiyyəti yoxdur”.

Qeyd edək ki, Mahir “Legiya” ilə 18 oyunda 10 qol vurub.

## Cindən yeni “müjdə” “X” virusu gəlir



Çinin Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin rəhbəri Qao Fu elm və texnologiyaya dair beynəlxalq forumda çıxışı zamanı bildirib ki, gələcəkdə bəşəriyyət mütləq yeni virusla üz-üzə qalacaq və ona qarşı mübarizə aparmaq üçün qarşılıqlı təsir prinsipi təklif edib.

”Dünya tək koronavirus pandemiyası ilə deyil, bir sıra digər problemlərlə də üzləşib. Məsələn, infodemiya kimi. Yəni aktual informasiya ilə dezinformasiya qarışanda bu, çoxlu şayiə və problem yaradır”, - mütəxəssis deyib. Qao Fu vurğulayıb ki, gələcəkdə dünya mütləq ”X virusu” ilə rastlaşacaq, onun xüsusiyyətlərini isə hələlik heç kim bilmir. O virus isə istənilən vaxt istənilən yerdə peyda ola bilər.

”İnsanlığın gələcəyi naminə problemin həlli üzərində birgə çalışmaq lazımdır. Bununla bağlı ”dörd C prinsipi” təklif edirəm: əməkdaşlıq (cooperation), rəqabət (competition), ünsiyyət və ya məlumat mübadiləsi (communication) və nəhayət, hətta bəzən üçüncü tərəflə koordinasiya (coordination)”, - ekspert deyib. Bunlardan o, məlumat mübadiləsini xüsusi vurğulayıb, çünki onun sözlərinə görə, məhz Çinin dünya alimlərilə açıq məlumat mübadiləsi qısa müddət ərzində koronavirus əleyhinə vaksin yaradılmasına təkan verib.

Hər il müxtəlif ölkələrin hökumətlərinin nümayəndələrinin, şirkət rəhbərlərinin və elmi mərkəzlərin başçılarının iştirak etdiyi ”Cəmiyyətdə elm və texnologiya” adlı Kioto forumu şənbə günü koronavirusun yayılmasını əngəlləmək məqsədilə onlayn formatda başlayıb. Pandemiyaya qədər bu forum hər il Kiotoda keçirilirdi.

## Papanın üç mühafizəçisi peyvəndə görə istefa verib



Roma Papasının 3 isveçrəli elit mühafizəçisi koronavirusa qarşı peyvənd olunmaqdan imtina edərək vəzifələrindən istefa verib. SİA “Tribune de Geneve” nəşrinə istinadən xəbər verir ki, bu barədə məlumatı Vatikan Mühafizəsinin rəsmi nümayəndəsi leytenant Urs Braytenmozer təsdiqləyib.

İstefanın könüllü olduğunu deyən Braytenmozer əlavə edib ki, bu, dünyanın digər ordu korpuslarında görülən tədbirlərə uyğundur.

## Təyyarə körpünün altında qalıb



Son illərin ən qəribə hadisələrindən biri Hindistanda baş verib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata əsasən, “Air İndia” donanmasına məxsus nəhəng sərnişin təyyarəsi Dehli-Guruqram şossesindəki körpünün altında qalıb. Logistika şirkətinin səhv hesablanması bu qəribə hadisənin baş verməsinə səbəb olub. Hadisədən sonra axtarış-xilasetmə qrupları təyyarənin sıxışdığı yerdə qızğın iş həyata keçirib. Saatlarla işlədikdən sonra təyyarə körpüdən çıxarılıb.

***Abutel İsmayıllı***

## Kosmetik məhsullarda olan spirt dərini qurudur?



Kosmetik məhsulların tərkibində spirt olması mübahisəli məsələdir. Buna görə də çoxları tərkibində spirt olan məhsullardan imtina etməyə çalışır. Əgər etil spirtdən söhbət gedirsə, bu, kifayət qədər doğru bir qərardır. Yağlı dərilər üçün olan məhsulların tərkibində tez-tez etil spirtinə rast gəlmək olar. Lakin spirtli kosmetikalardan qəti sürətdə imtina etmək də olmaz. Spirt növləri həddən artıq çoxdur, onlardan bəziləri nəinki dəriyə ziyan verir, az da olsa faydalı ola bilər.

Publika.az oxucuları spirtlərin kosmetik məhsullarda rolu ilə tanış edir.

Zərərli spirtlərdən başlayaq. Kosmetikada etanol çox rast gəlinir. Etil spirti yağlı dəriyə qulluq vasitələrinə əlavə olunur, çünki artıq sebumu dərhal həll edir və iltihabı qurudur. Bununla birlikdə, etanol dərini çox qıcıqlandırır: səthindəki nəmi sözün həqiqi mənasında buxarlandırır, dartılma və quruluq hissi yaradır, nəticədə təbii qoruyucu baryeri məhv edir. Bundan sonra dəri daha da yağlanır, məsamələr genişlənir və yeni iltihablar əmələ gəlir. Digər sadə spirtlər - izopropil və denatürlü spirtlər də eyni xüsusiyyətlərə malikdir. Bu maddələrdən bütün dəri tiplərinin sahibləri çəkinməlidir, çünki zərərdən başqa heç nə verməyəcəklər. Etanolun ən az 70% konsentrasiyasında olduğu yeganə məhsullar əl antiseptikləridir.

Yağlı spirtlər deyilən maddələr var ki, klassik mənada spirtə bənzəmirlər: qatı, mumlu və xarakterik kəskin qoxuya malik deyillər. Yağlı spirtlər kosmetika istehsalçıları tərəfindən bir neçə səbəbdən qiymətləndirilir: məhsullara viskoz, xoş konsentrasiya verir və formulu sabitləşdirir, aktiv maddələrin faydalı xüsusiyyətlərini saxlamağa imkan verir. Bundan əlavə, yağlı spirtlər okklüziv maddələrdir, yəni dərinin səthində nəm saxlamağa kömək edir, buxarlanmasının qarşısını alır.

Yağlı spirtlərə behenil spirti, kapril spirti, setearil spirti, setil spirti, desil spirti, lauril spirti daxildir. Bu maddələrdən ibarət olan kosmetikalar yumşaq və nəmləndirici olduğu üçün bütün dəri tiplərində istifadə edilə bilər. Ancaq hər bir dərinin kosmetik məhsullara fərqli reaksiya verdiyini xatırlamağa dəyər. İlk dəfə yağlı spirtli kosmetika istifadə edirsinizsə, əvvəlcə dərinin kiçik bir hissəsinə tətbiq edin və heç bir reaksiya yoxdursa, məhsulu təhlükəsiz istifadə edə bilərsiniz.